DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (385) / NOYABR 2023-CÜ İL

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA MAMAYI MƏSCİDİNDƏ APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, bu məscid Şuşa şəhərinin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Düzbucaqlı quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var.

Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Burada da məscid, bulaq, kiçik meydan, hamam olub. Lakin işğal zamanı onlar da erməni vandalizminə məruz qalıb. Sovet hakimiyyəti illərində isə Mamayı məscidi poeziya evi kimi fəaliyyət göstərib.

Hazırda məsciddə "PAŞA Holding"in dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa işləri həyata keçirilir.

Qeyd olunub ki, bərpa işləri Mamayı bulağını da əhatə edir. Vaxtilə Mamayı məhəlləsindəki bulağın yuxarı hissəsində kitabə olub. Kitabədə bulağın 1900-cu ildə Səməd ağa Cavanşir tərəfindən tikildiyi yazılmışdır. Ermənilər Şuşanı işğal altında saxladığı dövrdə şəhərdəki bir çox abidələr kimi Mamayı bulağını da erməniləşdirməyə çalışıblar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunub. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dillərində yazılmış lövhə də həkk ediblər. Aparılacaq işlər zamanı Mamayı məscidinin və bulağın tarixi görkəmi bərpa olunaraq istifadəyə veriləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Heydər Əliyev Fondu tərəfindən Çöl Qala məscidində və bulağında aparılan bərpa işləri barədə də məlumat verilib.

Bildirilib ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib. Onun forması Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı olub. Məscidin ümumi girişi asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub. İbadət ocağının interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi dörd ədəd səkkizguşəli daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını üç hissəyə ayırır.

Məscidin taleyi Şuşa şəhəri 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra şəhərin digər tarixi abidələri kimi olub və bu dini-tarixi abidəmiz də dağıdılaraq talan edilib.

Çöl Qala məscidinin yaxınlığında məscidin üslubunda tikilən XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra bulaq da dağıdılıb, daş kitabələri də məhv edilib.

## BAKIDA "QALİBİYYƏTİN TƏNTƏNƏSİ" ADLI KONFRANS TƏŞKİL EDİLİB

Səh. 6




## DQİDK YANINDA İCTİMAİ ŞURAYA SEÇKİLƏR KEÇİRİLİB

Səh. 7



# ŞUŞA ŞƏHƏRİNİN 2024-CÜ İL ÜÇÜN "İSLAM DÜNYASININ MƏDƏNİYYƏT PAYTAXTI" ELAN EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub İslam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 21 noyabr 2023-cü il

## DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SƏUDİYYƏ ƏRƏBİSTANI SƏFİRİ İLƏ GÖRÜŞÜB

Noyabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanı Krallığının (SƏK) ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüşüb.

Görüş zamanı səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Dövlət Komitəsinin sədri ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik əlaqələrin tarixinin müstəqilliyimizin ilk illərinə təsadüf etdiyini bildirən M.Qurbanlı Ümummilli Lider Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına səfəri çərçivəsində keçirdiyi görüşlərin əlaqələrimizin inkişafında dönüş nöqtəsi olduğunu və həmin səfər nəticəsində qarşılıqlı əməkdaşlığın təməlinin qoyulduğunu diqqətə çatdırıb. Hazırda bu əməkdaşlığın uğurla davam etdiyi, Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərlərinin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığı xüsusi olaraq qeyd olunub.



Dövlət Komitəsinin sədri qonağı ölkəmizdəki nümunəvi dövlət-din münasibətləri, DQİDK-nın fəaliyyəti barədə məlumatlandırıb. Bildirib ki, Azərbaycanda dini sahəyə daim diqqət və xüsusi qayğı göstərilir. Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq və multikultural ənənələrin, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə yönəlib.

Cari ilin may ayında Səudiyyə Ərəbistanı Krallığının İslam Məsələləri, Çağırış və İrşad Nazirliyinin dəvəti ilə SƏK-ə səfər etdiyini, bu çərçivədə Dövlət Komitəsi ilə sözügedən nazirlik arasında Anlaşma Memorandumunun imzalandığını xatırladan M.Qurbanlı ölkələrimiz arasında mövcud əlaqələrin genişləndirilməsi, dini ekstremizm, islamofobiya və radikalizmin qarşısının alınması sahəsində birgə səylərin gücləndirilməsi, eləcə də qarşılıqlı təcrübə mübadiləsinin aparılması istiqamətində keçirilən görüşlərin önəminə toxunub.

Səmimi qəbula görə Dövlət Komitəsi sədrinə minnətdarlığını bildirən səfir İssam bin Saleh əl-Cuteyli Azərbaycana səfir təyin edilməsinin onun üçün sevindirici hal olduğunu deyib. Azərbaycanın sürətli inkişafına şahid olduğunu diqqətə çatdırıb. Diplomat təmsil etdiyi ölkənin Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini həm xalqının, həm də dövlətinin bu məsələyə olan ədalətli münasibətini əks etdirdiyini xüsusi vurğulayıb. İssam bin Saleh əl-Cuteyli ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafı üçün əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

Qarşılıqlı əməkdaşlığın perspektivlərinin müzakirə edildiyi görüşün sonunda səfirə Dövlət Komitəsinin ingilis və ərəb dillərində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar, eləcə də Azərbaycan dilində Qurani-Kərim təqdim edilib.

## MÜBARİZ QURBANLININ "HEYDƏR ƏLİYEV VƏ İSLAM DÜNYASI" ADLI MƏQALƏSİ DƏRC OLUNUB




Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Xarici İşlər Nazirliyi tərəfindən nəşr olunan "Diplomatiya aləmi" jurnalının xüsusi buraxılışında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının məqaləsi də yer alıb.

"Heydər Əliyev və İslam dünyası" başlıqlı məqalədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə həm respublikamızda Sovet dövründə ciddi təzyiqlərə məruz qalmış İslam dəyərlərinin yenidən özünə layiqli yer tutması, həm də ölkəmizlə İslam dövlətləri arasında münasibətlərin inkişafı üçün yaranan imkanlar barədə məlumatlar əks olunub. Azərbaycanın İslam dünyası ilə bütün sahələrdə əlaqələrinin genişləndirilməsi, xalqlar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsi, həmçinin münasibətlərin dərinləşdirilməsi istiqamətində Heydər Əliyevin tarixi xidmətləri vurğulanıb.

Yazıda, həmçinin müsəlman dünyasındakı aparıcı beynəlxalq qurumlarla ölkəmiz arasındakı əlaqə və təmasların intensivləşdirilməsində Heydər Əliyevin əvəzsiz rolu, qarşılıqlı səfər və görüşlər, o cümlədən Ulu Öndərin İslam dünyası ilə əlaqələrin möhkəmləndirilməsi, islami dəyərlərin qorunması sahəsində müəyyənləşdirdiyi siyasətin müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə dair mühüm məqamlardan bəhs olunur.

## MÜBARİZ QURBANLI: AZƏRBAYCANIN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİNİ GƏLƏCƏK NƏSİLLƏRƏ ÇATDIRMAQ ÜÇÜN FƏALİYYƏT GÖSTƏRİRİK

"Azərbaycanın milli-mənəvi dəyərlərini gələcək nəsillərə çatdırmaq istiqamətində fəaliyyət göstəririk ki, bu dəyərlər mütləq yaşasın. Buraya dilimiz, dinimiz, adət-ənənələrimiz, ailə dəyərlərimiz, o cümlədən müstəqil Azərbaycanın Bayrağı, Gerbi, Himni aiddir".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı noyabrın 16-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda konfransda deyib.

O bildirib ki, bu dəyərlər hamı üçün eynidir. Tarix boyu xalqımızın inkişafına, tərəqqisinə töhfələr verən şəxsiyyətlərimiz olub. Onlar da bizim üçün dəyərlərdir. Biz də həmin dəyərləri daim qoruyub saxlamalıyıq. Ulu Öndər Heydər Əliyev bizim üçün çox böyük dəyər, irs qoyub. Dövlət müstəqilliyimizin bərpası, dəyərlərimizin yaşadılması və inkişaf etdirilməsi baxımından onun xidmətləri əvəzsizdir. Ümummilli Lider Heydər Əliyev irsi də bizim üçün dəyərdir.



# "BİZ BİRLİKDƏ GÜCLÜYÜK" MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Noyabrın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) təşkilatçılığı ilə "Biz birlikdə güclüyük" mövzusunda konfrans keçirilib.

Tədbir başlamazdan öncə torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Respublikamızda fəaliyyət göstərən müxtəlif konfessiyalara mənsub dini icmaların sədrləri və din xadimlərinin iştirakı ilə keçirilən tədbirin əvvəlində xalqımızın milli-mənəvi dəyərlərinin, birlik və həmrəyliyinin, Azərbaycanın tolerant və multikultural modelinin təbliği, o cümlədən birgəyaşayış formulunun daha geniş kütləyə yayılması məqsədilə MDTF-nin sifarişi ilə hazırlanan "Müasir çağırışlar: birgəyaşayış nümunəsi" adlı qısametrajlı sənədli film nümayiş olunub.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edərək bu Qələbənin əsasında Prezident cənab İlham Əliyevin məqsədyönlü siyasətinin və Ordumuzun gücünün dayandığını deyib. Eyni zamanda, qələbəmizi şərtləndirən amillər sırasında xalqımızın həmrəyliyinin, milli dəyərlərə, birgəyaşayış ənənəsinə verdiyi önəmin yer aldığını bildirib. Qeyd edib ki, bu gün dünyada həm tolerantlıq, həm də multikultural dəyərlərə sadiqlik olduqca vacibdir. Hazırkı dövrdə dünyamız təhlükədədir. Baş verən münaqişələr, insanların həyatını itirməsi bunu deməyə əsas verir. Bu münaqişələr təkcə dini deyil, müxtəlif aspektlərdə baş verir. Azərbaycan isə özünün tarixi keçmişi və ənənələri ilə dünyaya nümunə olacaq ölkələr sırasındadır. Ölkəmizin coğrafi mövqeyi, əhalisinin etnik tərkibi qədim dövrdən burada fərqli dinlərin mövcudluğuna şərait yaradıb. Bütpərəstlik, Zərdüştlük, Yəhudilik, Xristianlıq, İslam və digər dini inanclar Azərbaycan ərazisində yayılıb. M.Qurbanlı əlavə edib ki, bu gün dünya miqyasında demokratik dəyər kimi təbliğ olunan tolerantlıq Azərbaycan xalqının minilliklər boyu formalaşmış ənənəsidir. Tolerantlığın Azərbaycan xalqının xarakterik xüsusiyyəti olduğunu sübut etmək üçün geniş tədqiqat aparılmasına ehtiyac yoxdur. Çünki əsrlərboyu Azərbaycanda kilsələr və sinaqoqlar məscidlərlə yanaşı fəaliyyət göstərib, nəticədə Vətənimiz tolerantlıq mərkəzlərindən birinə çevrilib. Komitə sədri, həmçinin tolerantlığın Azərbaycan nümunəsinin təbliği istiqamətində sənədli fimlərin çəkilməsinin və bu ənənələrin gələcək nəsillər tərəfindən davam etdirilməsinin önəminə toxunub.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev torpaqlarımızın azad edilməsində dini mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarının görünməmiş həmrəylik nümayiş etdirdiyini, ön və arxa cəbhədə sarsılmaz birlik yarandığını vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov tolerantlığın Azərbaycanda həyat tərzi olduğuna diqqət çəkərək Ulu Öndər Heydər Əliyevin ölkəmizin birgəyaşayış modelini siyasi müstəviyə qaldırdığını deyib. Bildirib ki, bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun mərkəzinə çevrilən ölkəmizin təşəbbüsləri dünyanın qlobal gücləri tərəfindən də dəstəklənir. R.Həsənov, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda keçirilən ilk festivalın milli birlik və həmrəyliyə həsr edilməsinin Azərbaycanın multikultural dəyərlərə verdiyi önəmi bir daha nümayiş etdirdiyini qeyd edib.




Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov tarixi ənənələrin, müasir zamanda isə müvafiq qanunvericiliyin və məqsədyönlü dövlət siyasətinin göstəricisi olan tolerantlıq mühitinin, multikultural dəyərlərin insanların dinindən, irqindən asılı olmayaraq siyasi sabitliyi, əmin-amanlığı ilə seçilən ölkəmizdə firavan həyat sürməsinə imkan yaratdığını deyib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının İctimai təşkilatlarla iş üzrə şöbəsinin müdiri Elnur Əfəndiyev, Azərbaycan Katolik kilsəsinin nümayəndəsi Yozef Marek, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli, "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının sədri Rasim Xəlilov mövzu ilə bağlı fikirlərini bölüşüblər. Bildiriblər ki, tarixi ədalətin bərpası – Azərbaycan torpaqlarının işğaldan azad edilməsi yönündə Ali Baş Komandan İlham Əliyevin öncüllüyü ilə qazanılan Zəfər haqqın, ədalətin təntənəsi kimi tarix salnamələrinə həkk oldu. Azərbaycançılıq məfkurəsinin ayrılmaz tərkib hissəsi olan, müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının bir ailənin üzvləri kimi mənəvi harmoniya şəraitində yaşamalarını təmin edən multikultural ənənələrimiz sayəsində Azərbaycan dövlətinin qüdrəti sarsılmazdır və qələbələri davamlı olacaqdır.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov isə çıxışında tolerant və multikultural dəyərlərin təbliği və təşviqinin önəminə toxunub. Bu ənənələrin qorunub saxlanılması istiqamətində din xadimlərinin üzərinə düşən vəzifələrə, eləcə də həyata keçirilən tədbirlərin əhəmiyyətinə diqqət çəkib.

Konfransın sonunda xalq rəssamı Əşrəf Heybətov tərəfindən tolerantlığa həsr olunmuş əsəri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə təqdim edilib.

# YENİ TƏYİNAT ALMIŞ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması üçün 04-19 sentyabr tarixlərində keçirilmiş müsahibədə uğur qazanan və təyinat alan din xadimləri ilə görüş keçirilib.

Noyabrın 13-də baş tutan görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı din xadimlərini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Son illərdə bütün sahələrə olduğu kimi, milli-mənəvi dəyərlərimizə dövlət qayğısının daha da artdığını diqqətə çatdıran Komitə sədri qeyd edib ki, Azərbaycanda dinlərarası münasibətlər, tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin düzgün təbliği, ənənəvi dindarlıq anlayışının və ölkəmizin tolerantlıq modelinin mahiyyəti, müasir dünyada dini dözümlülüyün əhəmiyyəti, habelə dövlətçilik və vətənpərvərlik məfhumları bu gün din xadimlərinin fəaliyyətində əsas xətt olmalıdır.

Görüşdə yeni təyinat almış din xadimlərinin fikirləri və təklifləri dinlənilib. Dövlət tərəfindən dinə və din xadimlərinə olan diqqəti yüksək dəyərləndirən çıxışçılar məscidlərə məhz bu qaydalar əsasında təyinatın həyata keçirilməsindən məmnunluqlarını ifadə edərək, imtahanların obyektiv və şəffaf təşkil edilməsindən razılıqlarını bildiriblər.

Qeyd edək ki, təyinat alanlardan 2-i fəlsəfə doktoru olmaqla 31-i din xadimi, 10 nəfəri isə qadın dini ayinlərin icraçısıdır.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ SABİRABADDA VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı noyabrın 23-də Saatlı, Sabirabad, İmişli və Beyləqan rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl DQİDK sədri Mübariz Qurbanlı və Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşlar dini icmaların kitablarla təmin edilməsi, dini təhsil, dini maarifləndirmə işinin genişləndirilməsi, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri diqqətlə dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# BÖYÜK ZƏFƏRDƏN YENİ ZƏFƏRLƏRƏ



Bu gün böyük fəxr və qürurla qeyd etdiyimiz 8 Noyabr - Zəfər Günü Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirən mühüm tarixi hadisələrdən biridir. 3 il bundan əvvəl xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən misilsiz qələbənin əbədiləşdirilməsi üçün Prezident İlham Əliyevin imzaladığı Sərəncamla qeyd edilən Zəfər Gününün tarixi əhəmiyyəti bir əsrin hüdudlarına sığmır.

8 Noyabr Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsi və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsidir. Məhz bu tarixdə Azərbaycanın əzəli torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtararaq qalib xalqa çevirib. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi birləşmələrini cəmi 44 gün ərzində darmadağın etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın milli qürur hissini və ləyaqətini özünə qaytardı. Müharibənin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə fəxr etdiyini, onlarla qürur duyduğunu bildirdi. Həm işğal, həm də müharibə dövründə xarici təzyiqlərə və ikili standartlar siyasətinə baxmayaraq, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi ilə tarixi ədalət bərpa olundu. Ermənistan silahlı qüvvələrinin məğlub edilməsi ilə bütün dünya "yenilməz Ermənistan ordusu" mifologiyasına son qoyulduğunu gördü.

Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə 30 ilə yaxın müddətində BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələbləri yerinə yetirildi, bölgədə yeni geosiyasi və geoiqtisadi reallıq yarandı. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi: "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

Vətən müharibəsində qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət və Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində xalqımızın milli maraqlarının təmin olunması sahəsində Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycana beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb. Cənubi Qafqazın aparıcı dövləti kimi ölkəmizin dünya birliyində mövqeyi möhkəmlənib. Digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindəndir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycanı dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa İttifaqı, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının nəticəsidir. Xarici siyasət sayəsində əldə olunmuş nailiyyətlər ölkəmizin müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Müasir dövrdə beynəlxalq aləmdə baş verən geosiyasi ziddiyyətlərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyən dövlət kimi dünya ölkələri arasında özünə layiqli yer tutur.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində dövlətimiz fəal və çevik xarici siyasət həyata keçirib. Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə müfəssəl və dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev münaqişənin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb. Ermənistanın beynəlxalq hüquqi normalara saymazyana münasibəti və Azərbaycanın haqlı tələblərinə göz yumması uzun müddət davam edə bilməzdi. Vətən müharibəsi başlayarkən dünya ictimaiyyəti Ermənistanın hərbi təcavüzkarlığı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini bilərəkdən yerinə yetirməkdən boyun qaçırması ilə bağlı kifayət qədər məlumatlara malik idi.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə birlikdə son iki yüz ilə yaxın dövrdə Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirildi və xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələ həll edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı Qələbə: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Ulu Öndər Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut etdi. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar. Bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanan Prezident İlham Əliyev xalqımıza verdiyi vədə əməl etdi, özünün də vurğuladığı kimi, ata vəsiyyətini həyata keçirdi. Qarabağı işğaldan azad etməsi ilə 30 illik həsrətimizə son qoyan Ali Baş Komandanın həm siyasi, həm də döyüş meydanında necə güclü diplomat və sərkərdə olduğuna nəinki Azərbaycan xalqı, bütün dünya bir daha şahid oldu. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması Vətən müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsini təsdiq edən tarixi hadisə idi. Bununla da müharibənin ilk günlərindən etibarən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri Ermənistan hakimiyyətinin qəbul etməkdən başqa çıxış yolu qalmadı. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsindəki Qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi.

Vətən müharibəsində qələbənin əldə edilməsinin əsasında ciddi siyasi-iqtisadi, hərbi və mənəvi-psixoloji səbəblər dayanır ki, onların da formalaşması və həlledici şərtlər kimi çıxış etməsi müxtəlif mərhələlərdən keçib. XX əsrdə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi xalqımızın həyatında mühüm tarixi hadisədir. Həmin dövrdə xalqımızın milli maraqlarını ifadə edən dövlət siyasətinin aparılması vacib idi. Lakin keçmiş iqtidarların dövləti idarəetmə səriştəsinin olmaması nəticəsində Azərbaycan ağır sosial-iqtisadi və siyasi böhranla üzləşdi, cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaratdı. Ziddiyyətli xarakter daşıyan xarici siyasətin nəticəsində Azərbaycan beynəlxalq aləmdə təkləndi, dünya birliyində onun haqqında qeyri-ciddi dövlət obrazı formalaşdı.

davamı səh. 5

# BÖYÜK ZƏFƏRDƏN YENİ ZƏFƏRLƏRƏ

əvvəli səh. 4

Azərbaycanı üzləşdiyi bu böhrandan Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xilas etdi. Şərəfli və mənalı ömür yolunu müstəqil Azərbaycan dövlətinin qurulmasına, onun dünya ölkələri arasında layiqli yer tutmasına, xalqımızın xoşbəxt və firavan həyat şəraitində yaşamasına həsr etmiş Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə gələrkən Azərbaycanda total böhran vəziyyəti hökm sürürdü. Cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyət mövcud idi. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi və iqtisadi sahələrdə böyük uğurlar qazanmağa başladı. Heydər Əliyev ictimai-siyasi sabitliyin yaradılması və sosial-iqtisadi böhranın aradan qaldırılması üçün müdrik siyasət həyata keçirdi. Demokratik siyasi sistem və bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi. Cəmiyyətin bütün sahələrinin inkişafını nəzərdə tutan məqsədyönlü siyasətin nəticəsində Azərbaycanın dünya birliyində mövqeyi gücləndi. Heydər Əliyev Azərbaycanın xarici siyasətini beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında qurdu. Xarici siyasət aparılarkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alındı. Regional və beynəlxalq təşkilatlarla əlaqələr yaradıldı və xalqımızın mənafeyi naminə onların imkanlarından istifadə olunmağa başlanıldı. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər nüfuzlu qurumlarla Azərbaycanın əlaqələri möhkəmləndi.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq Heydər Əliyevin apardığı xarici siyasətin əsas istiqamətlərindən birini təşkil edib. Ümummilli Lider BMT Təhlükəsizlik Şurasının qətnamələr qəbul etməsinə nail olub, münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatların tribunalarından səsləndirib, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

Milli Ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin başladığı dövlət quruculuğu siyasətində mühüm yer tuturdu. 1993-cü ilə qədər hakimiyyətdə olan iqtidarların heç biri vahid komandanlığa tabe olan, təşkilatlanmış milli ordu yarada bilməmişdi. Lakin Heydər Əliyevin prinsipial siyasəti nəticəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələri yaradıldı və bununla da düşmənin hücumlarının qarşısı alındı.

Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində apardığı siyasət Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən illər ərzində Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı məqsədyönlü siyasət nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri daha da güclənmişdir. Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biridir.

Vətən müharibəsi başlamazdan əvvəl Ermənistanın hərbi təxribatlarının qarşısını Azərbaycan Silahlı Qüvvələri qətiyyətlə alırdı. Hələ 2016-cı il Aprel döyüşlərində Lələtəpənin və Talış yüksəkliyinin azad edilməsi ilə başlayan ilk qələbə addımları böyük Zəfərə gedən yolun təməlini qoydu. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə ölkəmizin düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan tərəfindən intensiv atəşə məruz qalanda Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatı ilə təxribatların qarşısını aldı, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər işğaldan azad edildi, İrəvan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri böyük qəhrəmanlıq göstərərək Ermənistanın törətdiyi hərbi təxribatların qarşısını qətiyyətlə aldı.



Vətən müharibəsi dövründə düşmən əlverişli coğrafi mövqe tutmasına və yerləşdiyi ərazinin relyefinin ona böyük üstünlük verməsinə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tab gətirə bilmədi, 10 min nəfərdən çox erməni əsgər və zabit fərarilik edərək döyüş meydanından qaçdı. Ermənilərdən fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri isə döyüşlərdə qəhrəmanlıq və fədakarlıq göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər ki, bununla da tarixi ədalət zəfər çaldı. Azərbaycan hərbçilərinin canı-qanı bahasına torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərmələri, bu yolda şəhidlik zirvəsinə ucalmaları və qazi olmaları yenilməzlik, mətinlik, qəhrəmanlığın parlaq təzahürüdür.

Vətən müharibəsi erməni faşizminin iç üzünü bir daha dünyaya göstərdi. Müharibə dövründə düşmən döyüş meydanında məğlub olarkən yenə də insanlığa sığmayan ən çirkin əməllərə əl atdı. Ermənistan qadağan olunmuş silahlardan və ballistik raketlərdən istifadə edərək ölkəmizin şəhər və kəndlərinə müntəzəm olaraq atəş açmağa başladı. Lakin düşmənin bu cür mənfur hərəkətlərinin qarşısını İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Silahlı Qüvvələri aldı.

Vətən müharibəsində məğlub olan Ermənistanın 10 noyabr üçtərəfli Bəyanatının müddəalarına zidd olaraq, Azərbaycanın Qarabağ bölgəsində silahlı birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olaraq qalırdı. Vətən müharibəsindən sonra Ermənistan, eləcə də onun dəstəyi ilə ərazilərimizdə qurulan xunta rejimi Azərbaycanın sülhsevər siyasətini adekvat dəyərləndirmədi. Ötən üç il ərzində rəsmi İrəvan üzərinə düşən öhdəliklərin icrasını ləngitməyə, gələcək revanşist iddialarının gerçəkləşəcəyi ümidi ilə status-kvonu saxlamağa və beləliklə, iki ölkə arasında sülh müqaviləsinin reallaşmamasına çalışırdı.

Nəhayət, bütün bu qanunsuz əməllərin qarşısının alınması məqsədilə sentyabrın 19-20-də keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olundu. Bu qələbələr Azərbaycan tarixinin şanlı səhifəsini təşkil edir. Son 200 ildə ilk dəfə olaraq Azərbaycan itirilmiş torpaqlarını azad etməklə tarix yazdı. İndi Azərbaycan bayrağı Qarabağın bütün ərazilərində - Xankəndi, Əsgəran, Xocalı, Ağdərə və Xocavənddə dalğalanır ki, buna məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsində nail olunmuşdur.

Vətən müharibəsində qələbənin nəticəsi olaraq, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış layihələrinin sürətlə həyata keçirilməsi Azərbaycan dövlətinin gücünü və qüdrətini bir daha göstərir. Bu ərazilərdə keçmiş məcburi köçkünlərin məskunlaşmasının təmin edilməsi məqsədilə geniş quruculuq işləri aparılır, yollar salınır, enerji stansiyaları istifadəyə verilir, hava limanları fəaliyyətə başlayır. Bütün bunlar hər birimizdə böyük qürur və fəxarət hissi yaradır. Vətən müharibəsi dövründə dünya birliyi Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bir daha gördü. Hamıya aydın oldu ki, Vətən müharibəsindəki şanlı qələbə Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq aləmdə yüksək nüfuzunun və xalq-dövlət-ordu birliyinin parlaq təcəssümüdür.

*"Respublika" qəzeti*

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
YAP İdarə Heyətinin üzvü.

# BAKIDA "QALİBİYYƏTİN TƏNTƏNƏSİ" ADLI KONFRANS TƏŞKİL EDİLİB




Noyabrın 7-də Bakıda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) və dini icmaların birgə təşkilatçılığı ilə 8 noyabr – Zəfər Gününə həsr edilmiş "Qalibiyyətin təntənəsi" adlı konfrans keçirilib.

Konfransda DQİDK, Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) və MDTF-nin rəhbərliyi, şəhid ailələri, Vətən müharibəsi qaziləri, mədəniyyət xadimləri, eləcə də dini icmaların üzvləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və 44 günlük Vətən müharibəsində Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə canlarından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi yad olunub.

Konfransda DQİDK sədri Mübariz Qurbanlı, MDTF-nin icraçı direktoru Mehman İsmayılov, Aİİ-nin rektoru Aqil Şirinov, şəhid atası Mürvət Əsgərov, Vətən müharibəsi qaziləri Həşim Mədətov və Sənan Həsənov, şəhid qızı Mustafayeva Göyçək çıxış ediblər. Natiqlər Zəfər tariximizdən, torpaqlarımızın düşmən təcavüzündən azad edilməsi uğrunda misilsiz qəhrəmanlıq göstərən şəhidlərin və qazilərin göstərdikləri şücaətdən və fədakarlığından söhbət açıblar. Diqqətə çatdırılıb ki, xalqımız tarixi Zəfərin ildönümünü artıq 3-cü ildir böyük qürurla və təntənə ilə qeyd edir.

Daha sonra tanınmış sənətçilərin, həmçinin şəhid övladlarından ibarət "Zəfər sədası" xor qrupunun ifasında vətənpərvərlik mahnıları səsləndirilib.

# HEYDƏR ƏLİYEV VƏ MULTİKULTURALİZM SİYASƏTİ



Ölkəmizin ən güclü dövrünü yaşadığı, adını qalib dövlət kimi tarixə yazdırmasının üçüncü ildönümünü misilsiz bir məmnunluq hissi ilə yaşayırıq. Bu qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin igid oğullarının göstərdikləri qəhrəmanlıqlarla yanaşı, həm də Azərbaycan xalqının birliyinin, həmrəyliyinin nəticəsi idi. Bu birlik və həmrəyliyin nümayişi Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin uğurla və uzaqgörənliklə həyata keçirdiyi multikulturalizm siyasətinin təntənəsi idi.

Multikulturalizmin fəal şəkildə dəstəklənməsi Azərbaycanın siyasi və sosial-mədəni tarixində silinməz iz qoyan Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasının əsas aspektlərindən birini təşkil edirdi. Çünki mədəni və etnik fərqliliklərin qovşağında yerləşən Azərbaycanda sabitliyin təmin olunması xüsusi yanaşma gərəkdirirdi. Ümummilli Lider hesab edirdi ki, mədəniyyətlərin müxtəlifliyinə hörmət ölkədə sabitliyin və birliyin təmin edilməsində əsas amillərdən biridir. Ona görə də fərqli mədəniyyətlərin qorunub saxlanılması ideyasını fəal şəkildə dəstəkləyir, etnik parçalanma və münaqişə mövzusuna həssaslıqla yanaşırdı. Nəticədə müstəqil Azərbaycan üçün ən həlledici anlarda xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev ölkəmizi bəladan, faciədən, vətəndaş müharibəsindən qurtara bildi. Ulu Öndərin 1993-cü il 10 oktyabr tarixində andiçmə mərasimində səsləndirdiyi bu fikirlər onun bütün hakimiyyəti dövründə və sonrakı illərdə öz təsdiqini tapdı, Azərbaycanın güclü inkişafının təməl dayaqlarından birinə çevrildi: "Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır. Bu gün bizim İslam dininin Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır".

Azərbaycanda harmonik sosial-mədəni məkan yaratmağa çalışan Heydər Əliyev multikulturallığın əsas şərtlərindən olan tolerantlıq ideyasını da dəstəkləyirdi. Tolerantlıq prinsipi onun siyasətinin əsas elementinə çevrilmişdi. Buraya təkcə müxtəlifliyin rəsmi tanınması deyil, həm də müxtəlif etnik qrupların mədəniyyətlərinə, dillərinə və adətlərinə fəal dəstək və hörmət daxil idi. Yeri gəlmişkən, 16 noyabr Beynəlxalq Tolerantlıq Günü kimi regionda ilk dəfə Azərbaycanda qeyd edilmişdir. 1999-cu ildə bu əlamətdar gündə ölkəmizdəki dini konfessiyaların başçıları ilə görüş keçirilməsi də məhz Ümummilli Liderimizin təşəbbüsü və göstərişi ilə olmuşdur. O bu təşəbbüsü ilə həm tolerantlıq prinsiplərinə münasibətini bir daha nümayiş etdirmiş, həm də gələcəkdə mütərəqqi ənənənin yaranması üçün zəmin hazırlamışdır.

Bu ənənənin davamı kimi, bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən konfessiyaların dini bayramlarında və əlamətdar günlərində ayrı-seçkilik qoymadan müsəlmanlara, xristianlara və yəhudilərə müraciət edir, dini və milli bayramlarda insanlar arasında olur, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərin icrasına nəzarət edir.

Heydər Əliyev müxtəlif qrupların mədəni irsini qorumaqla yanaşı, onları bir-birinə daha da yaxınlaşdırmağa çalışırdı. Bu, ümummilli kimliyin formalaşmasına töhfə verən müxtəlif icmaların nümayəndələri arasında dialoq və qarşılıqlı fəaliyyət üçün şəraitin yaradılmasında özünü göstərdi. Bunun sonrakı nəticələrini, məsələn, 2016-cı il 15 yanvar tarixində Heydər məscidində şiə və sünni dindarların birgə iştirak etdikləri Vəhdət namazının timsalında görə bilərik. Yaxud da fərqli dini konfessiyaların dəfələrlə ölkəmizə qarşı yönəlmiş təxribatlara dair birlikdə bəyanatlar hazırlaması, 44 günlük müharibə zamanı müxtəlif xalqlara və dinlərə mənsub Azərbaycan vətəndaşlarının çiyin-çiyinə, qətiyyətlə və vətənpərvərliklə döyüşərək 30 illik işğala son qoyması da bunun ən bariz nümunələrindəndir.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən multikulturalizm siyasəti ölkədə sabitliyə töhfə verməklə yanaşı, onun gələcək inkişafı üçün də zəmin yaratdı. Bəs multikulturalizm siyasətinin uğurunun sirri nədə idi? İlk növbədə, onun bərabərlik və ədalət prinsiplərinə sadiqliyi - bu siyasət etnik və mədəni mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar üçün bərabər hüquqlar ideyasını dəstəkləyirdi. Buraya təhsil, səhiyyə və digər sosial müavinətlərə bərabər çıxış üçün şərait yaradılması daxil idi. İkincisi, multikulturalizm siyasəti müxtəlif etnik qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi tədbirlərini əhatə edirdi. Buraya isə dillərə, adət-ənənələrə və tarixi məkanlara dəstək daxil idi. Üçüncüsü, multikulturalizm siyasəti müxtəlif etnik qrupların nümayəndələrini qərarların qəbulu proseslərinə fəal şəkildə daxil edirdi. Bu, ictimai həyatda daha geniş iştiraka, ümummilli kimliyin formalaşmasına şərait yaratdı.

Multikulturalizm siyasəti, tolerantlıq prinsiplərinin təşviqi ictimai şüura mühüm təsir göstərdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq", - deyən Ulu Öndər çoxmillətlilik anlayışını mədəni maneələr məsələsindən cəmiyyətdə zənginlik və güc məsələsinə çevirə bildi. Bu da öz növbəsində müxtəlifliyə dəyər verən millətin müsbət imicinin formalaşmasında rol oynadı. Onun bu siyasi irsi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, vahid və inklüziv cəmiyyətin qurulması üçün təməl prinsip kimi qalır. İnklüziv cəmiyyətdə etnik və mədəni mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş özünü həmin cəmiyyətin tamhüquqlu üzvü kimi hiss edir, bu da onların ölkənin sosial, iqtisadi və siyasi həyatında iştirakını stimullaşdırır. "Bura bizim vətənimizdir, hamımızın vətənidir. Müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. Bizim bir vətənimiz var - Azərbaycan! Bizim bir dilimiz var - Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var - azərbaycançılıq məfkurəsi! Mən arzu edirəm ki, dünyada yaşayan bütün azərbaycanlılar həmişə bir yerdə olsunlar. Həmişə bilsinlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanır və onlar hər zaman Azərbaycan dövlətinə arxalana bilərlər", - deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, milli maraqlara söykənən daxili və xarici siyasət kursunu müasir dövrün reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə davam etdirir. Bu da ölkəmizi hər bir azərbaycanlının görmək istədiyi ideal məmləkətə çevirib.

"Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən və ötən dövr ərzində həyata keçirdiyi daxili və xarici siyasətdə bunu sübuta yetirən Prezident İlham Əliyevin bu işdə ən böyük dəstəkçisi Birinci vitse-prezidentimiz, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycanın multikultural ənənələrinin qorunub saxlanılması, təbliği, həmçinin mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi ilə bağlı olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin təkcə ölkə daxilində inkişafına deyil, həm də bütün dünyada tanınmasına xidmət göstərir.

Sonda bir məsələni də xüsusi qeyd etmək istərdim ki, multikultural dəyərlərin qorunması ilə yanaşı, onun gələcək nəsillərə düzgün çatdırılması, öyrənilməsi və mahiyyətinə varılması olduqca önəmlidir. İstənilən sahədə Azərbaycan gerçəkliyinin gənclərə aşılanması, xalqın zəngin multikultural keçmişinin, dövlətin mədəni müxtəlifliyin qorunması istiqamətində atdığı addımların təbliği multikultural gələcəyin təminatıdır. Bu, həm də gənclərin dini-əxlaqi dəyərlərdən uzaqlaşmasının, onların adət-ənənələrimizə zidd davranışları mənimsəməsinin, zərərli axın və vərdişlərin tələsinə düşməsinin qarşısını almaq baxımından da önəmlidir.

**Səyyad Salahlı,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
sədrinin birinci müavini
"525-ci qəzet"

# «MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR»



Noyabrın 14-16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə İmişli rayonunda "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin İmişli rayonundakı abidəsi ziyarət edilib, önünə gül dəstəsi düzülüb.

Tədbir Dövlət Himninin səsləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün qorunması və bərpası uğrunda şəhid olanların ruhlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Din xadimləri, dini icma sədrləri, eləcə də ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konfransı İmişli Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Elçin Rzayev giriş sözü ilə açaraq Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması üçün gördüyü misilsiz işlərdən bəhs edib. E.Rzayev möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün dini konfessiyalara dövlət tərəfindən diqqət və qayğı göstərildiyini də diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili, həmçinin cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması istiqamətlərində görülən işlərdən danışıb. Dövlətin dinə hər zaman xüsusi həssaslıq və qayğı ilə yanaşdığını qeyd edən S.Salahlı dövlət başçısı cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələrin həyata keçirildiyini vurğulayıb.

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, İmişli şəhər "Cümə" məscidinin imamı Rasəf Rüstəmov çıxışlarında dövlətin dinə və din xadimlərinə diqqətindən, ölkəmizdəki sabit dini durumdan bəhs ediblər. Natiqlər, eyni zamanda son dövrlər DQİDK-nın təşəbbüsü ilə maarifləndirmə istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndiriblər.

Tədbir çərçivəsində kitab sərgisi keçirilib, sənədli film nümayiş olunub.

Konfransın ikinci günü rayonda fəaliyyət göstərən qurumların nümayəndələri və gənclərin iştirakı ilə davam edib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov, İmişli RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rüfət Muradov, Mil-Muğan Regional Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev, rayon Təhsil Sektorunun nümayəndəsi Vahid Tağıyev mövzu ilə bağlı fikirlərini



bölüşüblər. Bildirilib ki, vətəndaşların dini etiqad azadlığının təmin edilməsi demokratik inkişaf yolu seçmiş, yaratdığı multikultural mühitlə və tolerantlığı ilə dünya ölkələri arasında seçilən Azərbaycan Respublikasının daxili siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə bütün dinlərin qanun qarşısında bərabər olması, dövlət tərəfindən dini icmalara hər cür dəstəyin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulması ilə nəticələnib. O da qeyd olunub ki, dövlət-din münasibətlərinin yüksək səviyyədə olması, ölkənin davamlı inkişafına nail olmaq üçün əlverişli şəraitin yaradılması cəmiyyət daxilində inteqrasiya proseslərinin dərinləşməsinə səbəb olur. Bu da öz növbəsində etnik və dini zəmində baş verə biləcək münaqişələrin qarşısını alır.

Azərbaycan Respublikasının Prezidenti İlham



Əliyevin dini sahəyə diqqət və qayğısından da bəhs edən çıxışçılar bildiriblər ki, dövlətimizin başçısı dini abidələrin təmir və bərpasına xüsusi önəm verir, davamlı olaraq dini icma liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır.

Tədbirin üçüncü günündə Dövlət Komitəsinin şöbə müdiri Cahandar Əlifzadə, İmişli RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rüfət Muradov, Mil-Muğan Regional Təhsil İdarəsinin sektor müdiri Kərim Kərimov, İmişli şəhər "Cümə" məscidinin imamı Rasəf Rüstəmov, rayonda fəaliyyət göstərən dini icmaların sədrləri və din xadimləri iştirak ediblər.

Çıxışlar zamanı bildirilib ki, dinə münasibətindən asılı olmayaraq Azərbaycan Respublikasının vətəndaşları siyasi, iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində qanun qarşısında bərabərdirlər. Həmçinin ölkəmizdə dövlət-din münasibətlərində həssas nəzarətlə yanaşı, ölkədə etiqad azadlığı üçün şərait yaradılıb, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına diqqət və qayğı göstərilir. Ölkədəki dini etiqad azadlığından sui-istifadə edərək xalqımızın yüzillər boyu mühafizə etdiyi tolerantlıq ənənələrinə xələl gətirilməsinin dövlətimiz üçün yolverilməz hal olduğunu vurğulayan çıxışçılar qeyd ediblər ki, dünyəvi dövlət olan Azərbaycanda dindən siyasi məqsədlər naminə istifadə edilməsinə heç bir halda imkan verilmir. Bu kimi mənfi cəhdlərə qarşı həm inzibati, həm də ideoloji müstəvidə kəskin mübarizə aparılır. O da əlavə edilib ki, ölkəmizdə tarixən formalaşmış dini dəyərlər hər zaman radikalizmlə əks qütbdə dayanaraq yad ünsürlərə qarşı mübarizədə ciddi əhəmiyyətə malik olub. Bu baxımdan dini maarifləndirmə və radikalizmlə mübarizə sahələrində din xadimləri aktiv iştirak etməli, mövhumat, xurafat, cəhalət və bu kimi zərərli tendensiyalara qarşı mübarizə aparmalıdırlar.

Həmçinin 16 noyabr - Beynəlxalq Tolerantlıq Gününün əhəmiyyəti barədə söz açılıb.

Üçgünlük regional konfrans iştirakçıların fikirlərinin dinlənilməsi və suallarının cavablandırılması ilə yekunlaşıb.

# DQİDK YANINDA İCTİMAİ ŞURAYA SEÇKİLƏR KEÇİRİLİB

Noyabrın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın yeni tərkibinin müəyyən olunması üçün seçki keçirilib. Seçkinin təşkili məqsədilə Dövlət Komitəsi nümayəndələrindən 4, vətəndaş cəmiyyəti institutlarından 5 üzv olmaqla 9 nəfərdən ibarət Seçki Komissiyası yaradılıb və Komissiyanın protokoluna əsasən Şuraya üzvlüyün say həddi 9 olaraq təsdiq edilib.

Seçki Komissiyası tərəfindən vətəndaş cəmiyyəti institutlarının 18 nümayəndəsi namizəd kimi qeydə alınıb. "Gənclərin Mədəniyyətlərarası Əməkdaşlıq Liqası" İctimai Birliyinin sədri Elçin Əlişah oğlu Çobanzadə namizədliyini geri götürüb.

Seçkilərin keçirilməsi ilə bağlı səsverməde iştirak etmək üçün seçici qismində iştirakla bağlı sənədləri qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun olan 104 seçici rəsmi qeydiyyata alınıb. Onlardan 96 nəfər səsvermədə iştirak edib.

Qutudan çıxan bütün bülletenlər Seçki Komissiyasının üzvləri tərəfindən yoxlanılıb və hamısı etibarlı hesab edilib.



Seçkinin yekunu olaraq DQİDK yanında İctimai Şuranın 9 nəfərdən ibarət yeni tərkibi seçilib. Həmin şəxslər aşağıdakılardır:

1. Aqil Tapdıq oğlu Camal – "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri (17 səs);
2. Büllur Cavad qızı Məmmədova – "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyinin sədri (14 səs);
3. Cavid Nadir oğlu Şahverdiyev – "Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri (27 səs);
4. Fərid Tahir oğlu Şahbazlı – "İslahatçı Gənclər" İctimai Birliyinin sədri (41 səs);
5. Məhsəti Əli qızı Hüseynova – "Gənc Diplomatların Peşəkarlığının İnkişafına dəstək" İctimai Birliyinin icraçı direktoru (52 səs);
6. Nərminə Şərif qızı Qəribova – "Davamlı Turizmin İnkişafına Dəstək" İctimai Birliyinin sədri (31 səs);
7. Seymur Firidun oğlu Əzəmmədov – "Jurnalistlərin İqtisadi Araşdırmalarının Təhlili" İctimai Birliyinin sədri (59 səs);
8. Sevinc Əsgərxan qızı Alızadə – "Zəfər" Şəhid Ailələrinə Dəstək Birliyinin sədri (25 səs);
9. Səbuhi Eldar oğlu Abdullayev – "Elm" Gənclərin Sosial-İntellektual İnkişafına Dəstək İctimai Birliyinin sədri (14 səs).

Qeyd edək ki, İctimai Şuranın yaradılması Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, müvafiq fəaliyyət sahələrində ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin edilməsi məqsədi daşıyır.

# SƏYAVUŞ HEYDƏROV BİŞKEKDƏ “DİN VƏ QLOBAL ÇAĞIRIŞLAR” ADLI V BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB




Noyabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov Qırğız Respublikasının Dini İşlər üzrə Dövlət Komissiyasının təşəbbüsü ilə Bişkekdə keçirilən “Din və qlobal çağırışlar” adlı V beynəlxalq konfransda iştirak edib.

Müxtəlif ölkələrin dövlət qurumlarının nümayəndələri, dini liderlər, dinşünas alimlərin, həmçinin ekspertlərin iştirakı ilə keçirilən tədbirin “Din və cəmiyyət” mövzusundakı panelində məruzə ilə çıxış edən sədr müavini əvvəlcə diqqəti müasir dövrümüzdə mövcud olan dini radikalizm, ekstremizm, terrorizm, dinin siyasiləşdirilməsi, məzhəbçiliyin qabardılması kimi problemlərə, eləcə də bu problemlərdən doğan qlobal təhlükələrin miqyasına çəkib. Qeyd edib ki, din adından çıxış edən radikal, ekstremist qruplaşmalar, həmçinin dinin siyasiləşməsində, məzhəblər arasında uçurumların yaranmasında maraqlı olan qüvvələr törətdikləri münaqişələr və qarşıdurmalarla bütün dünyada dinlərin sülhpərvərlik missiyasına xələl gətirir, islamofobiyanın, ksenofobiyanın güclənməsinə rəvac verirlər. Bu mənada din adından sui-istifadə edərək yaradılan qarşıdurmaların qarşısını almaq üçün çıxış yollarının tapılmasına, dinlərin əsl mahiyyətinin öyrənilməsinə və düzgün təbliğ olunmasına hər zamankından daha çox ehtiyac vardır.

Milli təhlükəsizliyin təmin olunması istiqamətindəki mühüm faktorlara toxunan S.Heydərov etnik, dini qruplar arasındakı stereotipləri və sərhədləri, o cümlədən qeyri-bərabərliyi, ədalətsizliyi aradan qaldırmaq gücünə malik elementlərdən birinin təhsil olduğunu deyib.

DQİDK sədrinin müavini, həmçinin qeyd edilən qlobal problemlərin həlli istiqamətində Azərbaycanın fəaliyyətindən də bəhs edib. Bildirib ki, ali dəyərlərdən biri kimi qəbul edilən tolerantlıq Azərbaycan cəmiyyəti üçün birgəyaşayış normasıdır. Ölkəmizdə milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma hallarının olmaması, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, o cümlədən dini münasibətlərin qurulması Azərbaycanı bu sahədə ən yaxşı nümunəyə çevirib.

# “GƏNC NƏSLİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR RUHUNDA TƏRBİYƏSİ”



**Qubada**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə 16-17 noyabr tarixlərində Qubada “Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi” mövzusunda ikigünlük seminar-treninq keçirilib.

Quba, Qusar, Xaçmaz rayonlarında yerləşən məktəblərin direktorları, direktor müavinləri, uşaq birliyi rəhbərləri, psixoloqları, tarix, ədəbiyyat və həyat bilgisi fənlərini tədris edən müəllimlərin iştirakı ilə keçirilən tədbirdə DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova, Quba Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Anar Məmmədov, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin müdir müavini Pərvin Ağasıyev, Quba rayonu üzrə Təhsil sektorunun aparıcı məsləhətçisi Faiq Əliyev mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlar zamanı dünyəvi təhsilə qarşı ciddi təhlükə kəsb edən xurafat, mövhumat, fanatizm kimi ünsürlərin təsirlərinin məktəblərdən, xüsusilə məktəblilərdən uzaq tutulmasının, həmçinin təhsil ocaqlarının öz işlərini şagirdlərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində qurmalarının vacibliyinə diqqət çəkilib. Bildirilib ki, gənc nəslin nümayəndələrinin gələcəkdə məzhəbçi və radikalizm meyilli şəxslər kimi formalaşmaması üçün onların vətənpərvər, savadlı, təşəbbüskar olmağa təşviq edilmələri olduqca vacibdir. Bu baxımdan əsas vəzifələrdən biri təhsil sahəsində çalışan şəxslərin, xüsusilə müəllimlərin üzərinə düşür. O da bildirilib ki, dini radikalizmin, yad ideologiyaların təhlükələrinin və real nəticələrinin şagirdlərə düzgün formada çatdırılması, onlara milli-dini biliklərin azərbaycançılıq ideologiyası kontekstində öyrədilməsi ilə sağlam təfəkkürlü gəncliyin yetişməsinə nail olmaq mümkündür.

Tədbir çərçivəsində DQİDK-nın sifarişi ilə çəkilmiş “Azərbaycan gəncliyi və mənəvi dəyərlər” sənədli filmi nümayiş olunub.

Seminar-treninqin sonunda müəllimlərlə tədris etdikləri fənn çərçivəsində milli-mənəvi dəyərlərin öyrədilməsi metodları müzakirə edilib, treninqin mövzusuna uyğun praktiki məşğələlər və qrup işləri aparılıb.

**Lənkəranda**

Bu qəbildən olan növbəti seminar-treninq noyabrın 23-24-də Lənkəranda baş tutub.

Lənkəran, Astara və Lerik rayonlarından olan müəllimlərin iştirakı ilə keçirilən tədbirdə DQİDK-nın Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova, Azərbaycan İlahiyyat İnstitutunun İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova, Lənkəran-Astara regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Rəhim Rəhimov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva, şöbə müdirinin müavini – dini qurumlarla işin təşkilatçısı Cavad Miriyev, Lənkəran Təhsil sektorunun nümayəndəsi Cəmil Axundzadə mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlar zamanı bildirilib ki, təhsil prosesinin iştirakçılarını, xüsusilə xalqın gələcəyi olan təhsilalanları milli ideologiyamıza yad olan təsirlərdən, xurafat və fanatizmdən qorumalıyıq. Eləcə də dini maarifləndirmə işini elə qurmalıyıq ki, gənc nəsildə zərərli təbliğata qarşı “immunitet” formalaşsın. Vurğulanıb ki, müasir dövrdə zərərli dini cərəyanların təsirlərini dəf etmək üçün inzibati yol ilə yanaşı, intensiv təbliğat metodlarından istifadə zəruridir. Dini biliklərin sistemli və tərəfsiz formada məktəblilərə çatdırılması onları fanatizmdən və radikal təsirlərdən qorumanın ən effektiv vasitələrindəndir. Bu baxımdan müəllimlərin üzərinə düşən ali vəzifəyə diqqəti çəkən çıxışçılar, milli və dövlət təəssübkeşliyi olan, fanatik və mövhumatçı təfəkkürdən uzaq, tolerant,



vətənpərvər, ziyalı gənc nəslin formalaşdırılması zamanı təhsil işçilərini diqqətli olmağa, işlərini qeyd edilən potensial problemlərin əvvəlcədən qarşısının alınması yönündə qurmağa səsləyiblər.

Tədbir çərçivəsində milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyinə həsr olunmuş “Azərbaycan gəncliyi və mənəvi dəyərlər” sənədli filmi nümayiş etdirilib.

İkigünlük regional seminar-treninq müəllimlərlə mövzuyla bağlı müzakirələrin, həmçinin praktiki məşğələ və qrup işlərinin aparılması ilə yekunlaşıb.

# DÖVLƏT QULLUQÇULARININ ETİK DAVRANIŞ QAYDALARI MÖVZUSUNDA TƏLİMLƏR KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (Dövlət Komitəsi) sədrinin 68 nömrəli, 29.12.2022-ci il tarixli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində 2023-cü il üçün İllik İş Planına uyğun olaraq dövlət qulluqçularının etik davranış qaydalarına həsr edilmiş təlimlər keçirilib.

Avqustun 17-18-də Şamaxı, oktyabrın 9-11-də Lənkəran, oktyabrın 30-31-də Gəncə, Masallı, noyabrın 1-2-də Tovuz rayonlarında baş tutan təlimlərdə müvafiq şöbələrin əməkdaşları iştirak ediblər.

Təlimlər zamanı Hüquq və qeydiyyat şöbəsinin tərkibində Kadrlarla iş sektorunun müdiri Aqşin Əliyev tərəfindən “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Qanundan irəli gələn tələblər, davranış qaydaları barədə məlumat verilib. Etik davranış qaydalarının əsas prinsipləri və məqsədləri, əxlaqi prinsiplər, peşə əxlaqı, Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn etik vəzifələrlə bağlı nəzəri biliklər diqqətə çatdırılıb. Eyni zamanda, dövlət qulluqçusu üçün xidməti vəzifənin icrası ilə bağlı müəyyən edilən tələblər, etik davranış qaydalarına əməl olunmasına nəzarətin həyata keçirilməsi və digər mövzularla bağlı müzakirələr aparılıb.

# BAKIDA "HEYDƏR ƏLİYEV SİYASƏTİ: TOLERANTLIQ" MÖVZUSUNDA KONFRANS TƏŞKİL EDİLİB



Noyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda konfrans baş tutub. Tədbirdə Dövlət Komitəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbərliyi, respublikada fəaliyyət göstərən müxtəlif konfessiyalara mənsub dini icmaların sədrləri və din xadimləri iştirak ediblər.

Konfransda ölkədəki milli birlik və dini həmrəylikdən bəhs edən sənədli film nümayiş etdirilib.

DQİDK-nın sədr müavini Sahib Nağıyev tədbir iştirakçılarını Beynəlxalq Tolerantlıq Günü münasibətilə təbrik edib və hər il ölkəmizdə qeyd olunan bu günün əhəmiyyətindən danışıb. Bildirib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. Tolerantlığın dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi, onun möhkəmlənməsi, beynəlxalq miqyasda təbliğ edilməsi, eləcə də dünyada nümunə kimi qəbul olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu müdrik və uzaqgörən siyasət Ümummilli Liderin layiqli varisi Prezident İlham Əliyev tərəfindən mükəmməl şəkildə davam etdirilir. Azərbaycanın dini icmalarına, multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafına davamlı diqqət və qayğı göstərilir. Mütəmadi olaraq dini konfessiyalara fəaliyyətlərinin dəstəklənməsi üçün dövlət tərəfindən maliyyə yardımı ayrılır, bütün dinlərə məxsus ibadətgahlar inşa və bərpa edilir.

Sədr müavini, həmçinin vurğulayıb ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşdilər. Bu da ölkəmizdə aparılan uğurlu siyasətin nəticəsi kimi qiymətləndirilir.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini Fuad Nurullayev bildirib ki, hər bir xalq öz nailiyyətləri, həyat tərzi sayəsində formalaşır. Azərbaycan xalqı nəcib xüsusiyyətləri, tolerantlığı, eyni zamanda cəsarəti, vətənpərvərliyi və ədalətsizliklə barışmazlığı sayəsində dəmir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşərək torpaqlarını düşmən işğalından azad etdi. Azərbaycanda müxtəlif dini konfessiyaların nümayəndələrinin qardaş kimi yaşadığını xatırladan QMİ sədrinin müavini ölkəmizdə mövcud olan əqidə azadlığının xalqımızın ən üstün cəhətlərindən biri olmasını vurğulayıb. Əlavə edib ki, millətimizin dəyərli şəxsiyyəti Ulu Öndər Heydər Əliyev tolerantlığın, birgəyaşayış mədəniyyətinin xalqımız üçün xarakterik xüsusiyyət olduğunu qeyd edərək Azərbaycanı müxtəlif dinlərin nümayəndələrinin doğma Vətəni adlandırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov qeyd edib ki, xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın siyasi müstəviyə qaldırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və qlobal formada həyata keçirilir. R.Həsənov qeyd edib ki, Azərbaycan dünyada xalqların birliyi, birgəyaşayış, dayanıqlı sülh, mədəniyyətlərarası, dinlərarası dialoqla bağlı qlobal forumların təşəbbüskarıdır. Azərbaycanın həyata keçirdiyi multikulturalizm siyasəti, bu çərçivədə reallaşan layihələr beynəlxalq tribunalarda səsləndirilir, təqdir olunur və model kimi qəbul edilir. Dünyanın 26 ali təhsil ocağında Azərbaycanın multikulturalizm ənənələri öyrənilir.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının ictimai təşkilatlarla iş üzrə şöbəsinin müdiri Elnur Əfəndiyev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Azərbaycan Bibliya Cəmiyyəti xristian dini icmasının sədri Rasim Xəlilov, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli çıxışlarında Ulu Öndər Heydər Əliyevin dini icmalar arasında dostluq və qardaşlığın möhkəmlənməsinə verdiyi töhfələrə diqqət çəkiblər. Bildiriblər ki, bu gün ölkəmizdə yaşayan müxtəlif millətlərin, azsaylı xalqların müqəddəs saydıqları ocaqlarda dini ayinlərini sərbəst şəkildə yerinə yetirmələri, öz ana dillərində təhsil almaları məhz Ümummilli Liderin xidmətləridir. Hazırda Prezident İlham Əliyevin ölkəmizdə fəaliyyət göstərən konfessiyalara göstərdiyi diqqətə toxunan din xadimləri vurğulayıblar ki, dövlət başçısı dini bayramlarında və əlamətdar günlərində ayrı-seçkilik qoymadan müsəlmanlara, xristianlara və yəhudilərə təbriklər ünvanlayır, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi üçün bütün zəruri tədbirləri həyata keçirir. Həmçinin böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirləri davam etdirir.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

## QEYRİ-İSLAM DİNİ KONFESSİYALARIN NÜMAYƏNDƏLƏRİ ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ İKİNCİ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİBLƏR



8 Noyabr-Zəfər Günü ilə əlaqədar ölkəmizdə fəaliyyət göstərən qeyri-islam dini konfessiyaların nümayəndələri İkinci Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərimizin ruhuna dualar oxuyublar.

Çıxışlarda Zəfər Gününün önəmindən, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun düşmən üzərində tarixi qələbəsindən, bu qələbənin əldə olunmasında şəhidlərimizin və qazilərimizin şücaətindən bəhs olunub.

Qeyd edək ki, ziyarətdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məsul əməkdaşı da iştirak edib.

## QƏBƏLƏDƏ DİNİ KONFESSİYALARIN BİRGƏ İBADƏT MƏRASİMİ BAŞ TUTUB

Noyabrın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Alban-Udi Xristian dini icmasının birgə təşkilatçılığı ilə Heydər Əliyev Fondu tərəfindən Qəbələnin Nic kəndində əsaslı bərpa edilən və Vətən müharibəsi günlərində istifadəyə verilən Məryəm Ana kilsəsində ölkəmizdə fəaliyyət göstərən dini konfessiya nümayəndələrinin birgə iştirakı ilə ibadət həyata keçirilib.

Müasir Azərbaycan təkcə mədəniyyətlərarası deyil, həm də dinlərarası dialoqun mərkəzidir. Bu mənada Qəbələnin Nic qəsəbəsi təkcə ölkəmizdə deyil, dünyada tolerant mərkəzlərdən biri kimi tanınır. Dünyada yaşayan udilərin ana vətəni məhz Nic qəsəbəsidir. Bu qəsəbədə iki məscid və üç kilsə fəaliyyət göstərir. Udilər Avropa ilə Asiyanın kəsişməsində yerləşən tarixi vətənlərində öz dillərini, dinini, qədim adət-ənənələrini qoruyub saxlaya biliblər. Qəsəbədə Azərbaycan Udi Ocağının yaradılması multikulturalizmin daha da inkişafı yolunda mühüm addım kimi qiymətləndirilir.

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili bildirib ki, alban məbədlərinin, eləcə də ölkəmizdəki digər dini mərkəzlərin vaxtaşırı təmiri tolerantlığa gözəl nümunədir.

Robert Mobilinin sözlərinə görə sovetlər dövründə udilərə öz milli bayramlarını qeyd etmək qadağan olunsa da, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onlar etnik azlıq olaraq öz bayramlarını və adət-ənənələrini geniş qeyd edirlər.

İcma sədri bildirib ki, hazırda Nic qəsəbəsində 3 kilsə, iki məscid var. Dünyada yaşayan on min udinin 3700-ü burada məskunlaşıb. Nicdəki məktəblərin



ibtidai siniflərində udin dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir.

O da diqqətə çatdırılıb ki, hazırda Nicdə udilərlə bərabər azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri mehriban qonşuluq, bir-birinin adət-ənənələrinə, mədəniyyətinə qarşılıqlı hörmət şəraitində yaşayırlar. Azərbaycanda yaşayan bütün azsaylı xalqlar kimi udilərin də mədəniyyətinin, adət və ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi üçün böyük tədbirlər həyata keçirilir.

İbadət mərasimindən əvvəl dini konfessiya nümayəndələrinə Məryəm Ana kilsəsi barədə məlumat verilib. Onun bərpa müddətində həyata keçirilən işlərdən danışılıb.

Daha sonra kilsənin daxilində şamlar yandırılıb, birgəyaşayış mövzusunda sərgiyə baxış keçirilib.

Ölkəmizdə fəaliyyət göstərən müxtəlif dinlərin nümayəndələri öz ana dillərində ölkəmizin birlik və bərabərliyi üçün dua edib, şəhidlərin xatirəsini hörmətlə anıb, qazilərə şəfa diləyib.

# "MÜASİR ÇAĞIRIŞLAR VƏ QARŞIDA DURAN ƏSAS HƏDƏFLƏR"

Noyabrın 28-30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şirvan şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda üçgünlük regional konfrans keçirilib.



Tədbirin ilk günündə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, DQİDK sədrinin müavini Sahib Nağıyev, Milli Məclisin deputatı İltizam Yusifov, Daxili İşlər Nazirliyinin təmsilçisi Oqtay Tağıyev, YAP Şirvan şəhər təşkilatının sədri Zahid Qəhrəmanov, Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov, eləcə də ictimaiyyət nümayəndələri və din xadimləri iştirak ediblər.

Çıxışlar zamanı Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsindəki fəaliyyət istiqamətləri və hədəflərin müasir dövrün çağırışlarına uyğunlaşdırılmasının əhəmiyyətindən bəhs olunub. Bildirilib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din siyasətinin effektivliyi özünü tam doğruldub, hətta nümunəvi model kimi digər ölkələr tərəfindən yüksək qiymətləndirilib. Bu sayədə ölkəmiz dünyada dinlərarası dialoq, tolerantlıq və multikulturalizmin mövcudluğu ilə müsbət imic formalaşdırıb.

Dünyəvi dövlət prinsiplərinin zəiflədilməsi, ekstremist, radikal və məzhəbçi təbliğat məsələlərinə də toxunan çıxışçılar qeyd ediblər ki, siyasi fəaliyyətin və maraqların həyata keçirilməsində din amilindən istifadə olunması, dini kimliyin milli kimliyə qarşı qoyulması və bu kimi proseslər nəticəsində təzahür edən dinin siyasiləşdirilməsi tendensiyası dövlət maraqları baxımından son dərəcə təhlükəli məsələdir. Buna görə də, dövlətin inkişafı üçün böyük əhəmiyyət kəsb edən milli təhlükəsizliyə təhdidlərin qarşısının alınması, radikalizm və ekstremizmə qarşı birgə mübarizənin aparılması olduqca əhəmiyyətlidir.

Tədbir müzakirələrlə yekunlaşıb.

Noyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şirvan şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda keçirilən regional konfrans din xadimləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə davam edib.

Tədbiri giriş sözü ilə açan Şirvan Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rafael Nəsirov ölkəmizdə dini maarifləndirmə sahəsində həyata keçirilən işlərin önəminə toxunub. Eyni zamanda, Şirvanda dini durumun sabit olduğunu da diqqətə çatdırıb.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə milli-mənəvi dəyərlərin təbliğində din xadimlərinin üzərinə düşən vəzifələrə diqqət çəkib. Bildirib ki, bu ali dəyərlərin qorunması və gələcək nəsillərə çatdırılması olduqca aktual məsələdir. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Komitənin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev isə radikalizmə qarşı mübarizə, habelə milli-mənəvi, tolerant dəyərlərin qorunması məqsədilə həyata keçirilən layihələr haqqında məlumat verib. Qeyd edib ki, bu prosesdə dini icmaların və din xadimlərinin köməyindən geniş istifadə olunur.

Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi Aydın Yusifov, Şirvan Şəhər Təhsil Sektorunun müdiri Elçin Həsənov, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri Əvəz Mehrəliyev, Əlfağa Murtuzov gənclərin yad dini ideologiyanın təsirinə düşməmələri üçün onların maarifləndirilməsinin vacibliyini vurğulayıblar. Natiqlər, eyni zamanda din xadimlərinə göstərilən diqqət və qayğıdan bəhs ediblər.

Konfrans noyabrın 30-da davam edəcək.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Şirvan şəhərində "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" mövzusunda keçirilən üçgünlük regional konfrans noyabrın 30-da öz işini davam etdirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Şirvan Şəhər İcra Hakimiyyətinin və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan İH başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Fərzəliyeva milli-mənəvi dəyərlərimizin dövlətçiliyimizin möhkəmləndirilməsində oynadığı roldan danışıb. O, ölkəmizdə demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurulduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunmasının və gənc nəslə aşılanmasının xüsusilə aktuallıq kəsb etdiyinə diqqət çəkib.

DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, dini etiqad azadlığının təmin olunması, müxtəlif dinlərə və məzhəblərə etiqad edən ölkə vətəndaşlarının qarşılıqlı hörmət və əməkdaşlıq ənənələrinin daha da gücləndirilməsi məqsədi ilə keçirilən konfransın mövzusuna diqqət çəkərək, qloballaşma dövrünün çağırışlarından danışıb. Bildirib ki, dinin dünyada mədəni-əxlaqi dəyər çərçivəsindən çıxaraq kəskin şəkildə siyasiləşməsi cəhdləri, dünyəvilik və dini dəyərlərin bir-birinə qarşı qoyulması yolverilməzdir.

Şirvan şəhər 21 saylı orta məktəbin direktoru Səadət Quliyeva milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışaraq bildirib ki, tarixin ən çətin dövrlərində belə xalqımız öz milli-mənəvi dəyərlərini qoruyub saxlamağı, müqəddəs məqsədləri uğrunda birləşməyi, vəhdət olmağı bacarıb.

Sonda DQİDK-nın sifarişi ilə çəkilmiş "Müasir çağırışlar və qarşıda duran əsas hədəflər" adlı videoçarx nümayiş edilib.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# "QƏBİRİSTANLARIN İDARƏ OLUNMASI DÖVLƏT KOMİTƏSİNİN SƏLAHİYYƏTLƏRİNƏ AİD DEYİL"

"Qəbiristanların reyestri (qeydiyyata alınması) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) səlahiyyətlərinə daxildir. Qəbiristanların idarə olunmasını isə bələdiyyələr təşkil edir".

Bunu "Report"un sorğusuna cavab olaraq Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva son günlər qəbiristanlarla bağlı səsləndirilən fikirlərə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, DQİDK dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət edilməsini, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Şöbə müdiri xatırladıb ki, Nazirlər Kabinetinin qərarı ilə "Qəbiristanların salınması və idarə olunması Qaydaları" təsdiq olunub: "Bu qaydalara əsasən, qəbiristanların reyestri (qeydiyyata alınması) Dövlət Komitəsinin səlahiyyətlərinə daxildir. Qaydalara əsasən, qəbiristanların idarə olunması isə bələdiyyələr tərəfindən təşkil edilir. Həmçinin "Bələdiyyələrin statusu haqqında" qanuna əsasən mövcud qəbiristanların qorunması, saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi, yeni qəbiristanlıq sahələrinin ayrılması, yas mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulmuş tikililərin tamiri və yenilərinin inşası, mərasim və dəfn xidmətlərinin, o cümlədən bələdiyyənin ərazisində yaşayan əhalinin az təminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım göstərilməsinin bələdiyyələr tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, qəbiristanların salınması, idarə olunması Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq həyata keçirilir".

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN NÜMAYƏNDƏLƏRİ HDQ-DƏ HƏRBİ QULLUQÇULARLA GÖRÜŞÜBLƏR



Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2023-cü il üçün imzalanan birgə tədbirlər planına əsasən, Hərbi Dəniz Qüvvələrində Komitənin nümayəndələrinin iştirakı ilə tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər hərbi kollektivdə düzgün qarşılıqlı münasibətlərin formalaşmasından, sağlam əhval-ruhiyyənin yaradılmasından danışıblar. Dini radikalizm və ekstremizm təhlükəsizliyinin müdafiəsinin vacibliyi qeyd edilib.

Tədbirdə, həmçinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onların zərərli vərdişlərdən qorunmasında milli-mənəvi dəyərlərimizin rolundan söz açılıb, bu istiqamətdə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyəti şəxsi heyətin diqqətinə çatdırılıb.

Sonda hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın ataşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Ağayev Mənsur Ağa oğlu



İşğal altındakı torpaqlarımızın azadlığı uğurunda canından keçən qəhrəmanlarımızdan biri də şəhid Ağayev Mənsur Ağa oğludur. Əslən Kürdəmir rayonunun Sığırlı kəndindən olan Mənsur 1994-cü il iyulun 29-da Hacıqabul rayonunun Padar kəndində dünyaya gəlib. Ailənin sonbeşiyi olan Mənsur 2011-ci ildə Padar kənd orta məktəbini bitirib.

2012-cu il iyulunda Hacıqabul rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Mənsur Azərbaycan Silahlı Qüvvələrinin Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət edib.

Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsində iştirak etmək Mənsura da nəsib olub. Belə ki, o, 2020-ci ilin iyul döyüşlərindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə (SHXÇDX) müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci il sentyabrın 21-də ordu sıralarına çağırılan Mənsur Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə təlimlərdə iştirak edib. 2020-ci ilin 27 sentyabrında vətən müharibəsi başlayan ilk gündən Füzuli istiqamətindən döyüşlərə qatılıb. Nizam-intizam və qətiyyətli duruşu ilə döyüş yoldaşları arasında diqqəti cəlb edən Mənsur Füzuli istiqamətində bir neçə post və kəndlərin alınması uğrunda gedən döyüşlərdə iştirak edib. Daha sonra Xocavənd rayonunun bir neçə kəndinin və yüksəkliklərinin düşmən tapdağından azad edilməsində göstərdiyi şücaəti ilə seçilən Mənsur Ağayev sonuncu gün – noyabrın 9-da qəhrəmancasına şəhid olub. Canını Vətənə fəda edən Mənsur Kürdəmir rayonunun Sığırlı kənd qəbiristanında dəfn edilib.

Şəhidimiz subay idi.

Qəhrəmanlığı və şücaəti ilə adını vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Ağayev Mənsur Ağa oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Ağayev Şahin Azər oğlu



Bu gün biz fəxrlə deyə bilərik ki, Vətən uğrunda şəhidliyi könüllü qəbul edən gənclərimiz var. Şəhid Ağayev Şahin Azər oğlu da belə qəhrəmanlardan biridir. Şahin 1993-cü ilin dekabrın 13-də Bakı şəhərində anadan olub. Onun atası Azər, anası Qətibə xanım Masallının Öncəqala kəndində boya-başa çatıblar. Şahin 2000-2011-ci illərdə Bakı şəhəri, Yasamal rayonu 286 saylı tam orta məktəbdə təhsil alıb. 2011-ci ildə Milli Aviasiya Akademiyasına (MAA) qəbul olub. O, 2016-cı ildə pilot ixtisası üzrə aldığı təhsilini qırmızı diplomla başa vurub. Şahin 2016-cı ilin iyul ayında SHXÇDX-nın Bakı şəhəri Yasamal rayon idarəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Silahlı Qüvvələrin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmətə başlayan Şahin bu müddət ərzində ixtisasının sirlərinə dərindən yiyələnib. Nümunəvi xidmətinə görə dəfələrlə hərbi hissənin "Fəxri fərman" və "Təşəkkürnamə"sinə layiq görülüb. Şahin hərbi xidmətdən sonra bir müddət Azərbaycanın ən iri aviaşirkəti olan AZAL Qapalı Səhmdar Cəmiyyətində çalışıb. MAA-nın məzunu kimi bir dəfə hava nəqliyyatında sınaq uçuşu keçirib.

2020-ci ilin iyun ayında Tovuz istiqamətində düşmənin növbəti təxribatı zamanı general Polad Həşimovun və Azərbaycan Silahlı Qüvvələrinin bir neçə zabitinin şəhid olmasından sonra Şahin də Azərbaycan gənclərinin Milli Ordumuza dəstək aksiyasına qoşulanlar və ərazi bütövlüyümüz uğrunda döyüşlərdə iştirak etmək arzusunda olanların cərgəsində yer alıb. 2020-ci il sentyabrın 29-dan səfərbərliyə çağırılan Şahin Ağayev Vətən müharibəsində döyüşlərə Azərbaycan Ordusunun sanitar-kəşfiyyatçısı kimi qatılıb. Şahin Ağayev sanitar-kəşfiyyatçı kimi həmlə qrupunun tərkibində Füzulidə, Cəbrayılda, Hadrutda həm döyüşüb, həm də yaralı əsgərlərə qulluq edib.

Şəhid Şahin Ağayev 2020-ci il oktyabrın 25-də Qubadlıda yaralı əsgər yoldaşının həyatını xilas edərkən şəhid olub və İkinci Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Şəhidimiz subay idi.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Ağayev Şahin Azər oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Ayvazov Həsən Cəlil oğlu



Şəhid Ayvazov Həsən Cəlil oğlu 2000-ci il avqustun 21-də Tovuz rayonunun Pələkli kəndində anadan olub. O, 2006-cı ildə şəhid Vaqif Rəhmanov adına Pələkli kənd ümumi orta məktəbinə daxil olub, 2015-ci ildə həmin məktəbin 9-cu sinfini bitirib və təhsilini Hacılar kənd tam orta məktəbində davam etdirib. 2017-ci ildə məktəbi bitirən Həsənin arzusu hərbçi olmaq idi. Lakin imtahandan əvvəl səhhətində yaranan problem səbəbindən lazımi nəticə əldə edə bilməyib. 2018-ci ilin oktyabr ayında SHXÇDX-nın Tovuz rayon idarəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Həsən də cəbhə bölgəsində böyüyən digər uşaqlar kimi işğal altında olan torpaqlarımıza daim maraq göstərib. O yerlər barədə olan söhbətləri diqqətlə dinləyib. Bəlkə də, elə buna görə o, hər zaman irəli can atırdı, ön cəbhədə qulluq etmək istəyirdi. Tərtərdə xidmət etdiyi "N" saylı hərbi hissədə də düşmən postunun 49 metrliyində qulluq edib. 2020-ci ilin may ayında həqiqi hərbi xidmətini başa vuran Həsən 2020-ci il Tovuz döyüşlərindən sonra yenidən orduya könüllü qayıtmaq üçün müraciət edib. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqdan sonra Həsən müharibəyə aparılmadığı üçün bərk narahat olub, bir neçə dəfə SHXÇDX-nın Tovuz rayon idarəsinə gedib döyüşlərə getmək istədiyini bildirib. Nəhayət Həsənin gözlədiyi gün gəlib çatıb. O, 2020-ci ilin oktyabrın 5-də cəbhəyə yollanıb.

Həsən Vətən müharibəsində də ona tanış olan yerə Tərtər rayonu ərazisindən döyüşlərə qatılıb. Qəhrəmanımız Ağdərə istiqamətində bir neçə yüksəkliyin işğaldan azad edilməsində iştirak edib. Atasının sözlərinə görə, onunla sonuncu dəfə 2020-ci ilin oktyabrın 15-də əlaqə saxlayıblar. Həsən oktyabrın 17-də Ağdərə istiqamətində gedən döyüşlərin birində şəhid olub. Həsənin şəhid olması barədə məlumat ailəsinə müharibədən sonra 2020-cilin noyabrın 21-də verilib. Şəhid Həsən Ayvazov 2020-ci il noyabrın 22-də doğulduğu Pələkli kəndində torpağa tapşırılıb.

Şəhidimiz subay idi.

İgidliyi və cəsurluğu ilə adını vətən tariximizin şanlı səhifəsinə yazan Ayvazov Həsən Cəlil oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.

## Azadlı Eltac Sədrəddin oğlu



Şəhid Azadlı Eltac Sədrəddin oğlu 1992-ci il martın 22-də Beyləqan rayonunun Dünyamalılar kəndində dünyaya gəlib. O, 1999-cu ildə Əlibala Şirinov adına Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub. Hələ uşaqlıqdan mehribanlığı, tərbiyəsi ilə seçilərək sinif yoldaşlarının və müəllimlərinin sevgisini qazanıb. O, 2010-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2010-cu il iyulun 3-də Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Eltac Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində artilleriya divizionunun artilleriya taqımında xidmət edib. Rəşadəti, ayıq-sayıqlığı ilə seçilən Eltac həm də keçirilən dərslərdə diqqətli idi. O, hərbi xidmətini 2012-ci il yanvarın 1-də bitirib. Daha sonra müxtəlif işlərdə çalışıb. 2019-cu ildən isə Beyləqanda hərbi əşya-ərzaq anbarında çalışırdı. Həmişə yaxınları ilə söhbəti zamanı Vətənin dar günü olarsa, döyüşlərə könüllü qatılacağını deyən Eltac 2020-ci ilin iyul döyüşlərindən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci il 21 sentyabrda ordu sıralarına çağırılan qəhrəmanımız Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılmışdır. O, 1 həftəyə yaxın təlimlərdə iştirak etdikdən sonra sentyabrın 27-dən döyüşlərə qatılıb. Eltac topçu kimi iştirak etdiyi müharibədə yüksək əzmkarlıq və cəsarət nümayiş etdirib. İşğal altında olan ərazilərimizin azad olunmasında böyük şücaət göstərib. Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə xüsusi fədakarlıqları ilə seçilib. O, hər zaman yaralı yoldaşlarının yardımına yetib və şəhidlərimizin təxliyəsində yaxından iştirak edib. Eltac oktyabrın 30-da Füzuli rayonunda qəhrəmancasına şəhid olub. O, oktyabrın 31-də doğulub boya-başa çatdığı Dünyamalılar kəndində torpağa tapşırılıb.

Şəhidimiz ailəli idi. Onun Fateh adlı bir oğlu var.

Şücaəti ilə fərqlənən əsgər Azadlı Eltac Sədrəddin oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini noyabr ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**1 noyabr** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Binəqədi RİH-in təşkilatçılığı ilə din xadimləri və dini icma sədrləri ilə görüş; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti (RİH) və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Nəriman Nərimanov adına Mahamalar kənd tam orta məktəbində "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər N.Gəncəvi adına 11 nömrəli tam orta məktəbində "Gənclər arasında dini radikalizm və onun təzahür formaları" mövzusunda;



**2 noyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və DTX-nın Qax rayon şöbəsinin təşkilatçılığı ilə Qax şəhəri 5 saylı tam orta məktəbində "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonundakı Peşə Liseyində "Zəfərimiz qürurumuzdur" mövzusunda; Mərkəzləşdirilmiş Kitabxana Sistemində "Zəfər bizə yaraşır" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax şəhər Gənclər və İdman Sektorunun təşkilatçılığı ilə "Vətən müharibəsində qazanılan şanlı zəfər: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmirdə yerləşən "N" saylı hərbi hissədə "Dövlət bayrağımız milli dəyərlərimiz, qürur mənbəyimizdir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonu Sərkar kənd musiqi məktəbində "Dini radikalizmlə mübarizədə təhsilin rolu" mövzusunda;

**3 noyabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağcabədi RİH və rayon Polis Şöbəsinin (PŞ) təşkilatçılığı ilə rayonun Xocavənd kənd 2 saylı tam orta məktəbində "Antinarkotik təbliğat sahəsində fəaliyyətin gücləndirilməsi, dini radikalizm, ekstremizm, erkən nikah və onun fəsadları" mövzusunda;

4 noyabr – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı rayon Gənclər və İdman Sektorunun təşkilatçılığı ilə rayonun Anzov kənd tam orta məktəbində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri və Abşeron rayonunda Zəfər Günü ilə bağlı; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in təşkilatçılığı ilə "8 Noyabr Zəfər günü: milli və mənəvi həmrəyliyin zirvəsi" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzi və QMİ-nin bölgə qazılığının təşkilatçılığı ilə Quba rayonunda "İnamlı Zəfər, milli-mənəvi həmrəyliyin Şuşa zirvəsi" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz RİH, rayon PŞ və Təhsil Sektorunun (TS) təşkilatçılığı ilə Oğuz şəhər Həbib Babayev adına 1 nömrəli tam orta məktəbində "Uşaq hüquqlarının qorunmasında hüquqi və mənəvi öhdəliklərimiz" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və rayon PŞ-nin təşkilatçılığı ilə Vətən Müharibəsi Qəhrəmanı İsmayıl Səmədov adına Zaqatala şəhər 5 nömrəli tam orta məktəbində "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda;



**6 noyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin təşkilatçılığı ilə Quba rayonu, İkinci Nügədi kəndində "Uşaqların təhsildən yayındırılmasına qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Bərdə rayon Gənclər və İdman Sektorunun təşkilatçılığı ilə Bərdə şəhər 5 nömrəli tam orta məktəbdə "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər İmamzadə dini kompleksində "8 Noyabr Zəfər günü: milli və mənəvi həmrəyliyin zirvəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala rayon Sektorunun təşkilatçılığı ilə rayonun İsmət Qayıbov adına Qazangül tam orta məktəbində "Zəfər Günü: milli və mənəvi həmrəyliyin Şuşa zirvəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu S.Vurğun adına Qullar 1 saylı kənd tam orta məktəbində "9 Noyabr - Dövlət Bayrağı Günüdür" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayon Şağlaser, Kərgəlan, Cil kəndi "Hüseyniyyə" və Kənarmeşə kəndi "Bağıroba" məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;

**7 noyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH və QMİ-nin Sabirabad rayonu üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Milli və mənəvi həmrəyliyin Şuşa zirvəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və DTX-nin Qax rayon şöbəsinin təşkilatçılığı ilə Qax şəhər D.Əliyeva adına 1 saylı tam orta məktəbində "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərin rolu" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Balakən rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə rayonun Mikayıl Müşfiq adına Gərəkli kənd tam orta məktəbində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhər mərkəzi "Cümə" məscidində "Zəfər günü: milli-mənəvi həmrəyliyin Şuşa zirvəsi" mövzusunda və Qəbələ şəhər "Cümə" məscidində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda;

**13 noyabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Baş Polis İdarəsi, Abşeron - Xızı Regional Gənclər və İdman İdarəsi və Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 41 saylı tam orta məktəbində "Gənclərin dini radikalizm və zərərli vərdişlərdən qorunması" mövzusunda;

**14 noyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Kürdəmir RİH-in təşkilatçılığı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində Beynəlxalq Tolerantlıq Günü ilə əlaqədar "Azərbaycan tolerant ölkədir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Şabran rayon Gənclər və İdman Sektorunun təşkilatçılığı ilə "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi və Nizami RİH-in təşkilatçılığı ilə Nizami rayonu 242 saylı tam orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Ağsu RİH-in təşkilatçılığı ilə Ağsu şəhər 4 saylı tam orta məktəbində "Azərbaycanda tolerantlıq" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax şəhər 3 saylı tam orta məktəbində Konstitusiya Gününə həsr olunmuş tədbir; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Zaqatala Rayon Sektorunun təşkilatçılığı ilə Aydın Babayev adına Mosul kənd tam orta məktəbində "17 Noyabr-Milli Dirçəliş Günüdür" mövzusunda;

**15 noyabr** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Astara rayonu Kijəbə qəsəbə, Giləkəran, Şiyəkəran kənd və Lerik rayonu Orand kənd məscidlərində "Zəfərə aparan yol: milli və dini həmrəylik" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Xırdalan şəhəri 2 saylı tam orta məktəbində "Dini radikalizm və ekstremizmin fəsadları" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Şəhər Baş Polis İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 29 saylı və 33 saylı tam orta məktəblərində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Daşkəsən RİH-in təşkilatçılığı ilə Daşkəsən şəhər İ.Nəsimi adına 1 saylı tam orta məktəbində "Dini radikalizmlə mübarizə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdab rayonunda "Erkən nikah: hüquqi və mənəvi müstəvidə" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Ucar



rayon PŞ-nin təşkilatçılığı ilə rayonun Qazyan kənd 1 saylı tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsi və rayon Gənclər və İdman sektorunun təşkilatçılığı ilə Tovuz rayonu Peşə Liseyində "Erkən nikah və dini radikalizmə yox deyək" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və QMİ-nin təşkilatçılığı ilə Göyçay şəhər məscidində Beynəlxalq Tolerantlıq Günü ilə əlaqədar; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin təşkilatçılığı ilə Quba rayonunda Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuş tədbir; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in təşkilatçılığı ilə rayonun Danaçı kənd 2 saylı tam orta məktəbində 16 Noyabr - Beynəlxalq Tolerantlıq Günü münasibəti ilə;

**16 noyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Gəncə ŞİH-in təşkilatçılığı ilə Gəncə Dövlət Universitetində 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü ilə əlaqədar;

**17 noyabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhərində "Tolerantlığın Azərbaycan modeli" mövzusunda və Pedaqoji Universitetin Şəki filialında "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə yolları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və "Siyəzən Gənclər evi" sosial xidmət müəssisəsinin təşkilatçılığı ilə Siyəzən rayonunda "Birlik və həmrəyliyin qələbəsi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə Tibb Kollecində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı rayonunda "17 Noyabr - Milli Dirçəliş Günüdür" mövzusunda;

**20 noyabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin təşkilatçılığı ilə Quba rayonunda "Heydər Əliyev və hüquqi dövlət quruculuğu" mövzusunda;

**21 noyabr** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və rayon PŞ-nin təşkilatçılığı ilə Ucarda yerləşən Ağdam rayon 27 saylı köçkün tam orta məktəbində "Məişət zorakılığının qarşısının alınması" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Samux

davamı səh. 13

# QISA-QISA

əvvəli səh. 12 rayon PŞ-nin təşkilatçılığı ilə Samux rayonu Qarabağlılar kənd tam orta məktəbində "Gənclərin dini radikalizm və zərərli vərdişlərdən qorunması" mövzusunda;

22 noyabr – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yevlax ŞİH-in təşkilatçılığı ilə "Azərbaycan tolerantlıq diyarıdır" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Polis İdarəsi, Abşeron-Xızı Regional Gənclər və İdman, Təhsil idarələrinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 34 saylı tam orta məktəbində "Dini-ideoloji təhlükəsizlik və gənclər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Qaracallı kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlər və dini radikalizm" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad rayonunda "Narkomaniya bəşəriyyətin bəlasıdır" mövzusunda;



**23 noyabr** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhəri C.Cabbarlı adına 6 saylı tam orta məktəbində "Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Heydər Əliyev Mərkəzində "Narkomaniya bəşəriyyətin bəlasıdır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in təşkilatçılığı ilə rayonun Qullar 2 saylı tam orta məktəbində "Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Polis İdarəsi, Abşeron-Xızı Regional Gənclər və İdman, Təhsil idarələrinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 35 saylı tam orta məktəbində "Dünyəvi təhsil və milli-mənəvi dəyərlərin idrakı" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Yardımlı RİH-in təşkilatçılığı ilə rayonun Şəfəqli kənd S.Şabiyev adına tam orta məktəbində "Erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonu Peşə Məktəbində "Narkomaniyaya qarşı mübarizədə dini icmaların rolu" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Cəlilabad rayonunda "Gənc nəslin milli və vətənpərvər ruhda tərbiyəsi" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın RİH-in təşkilatçılığı ilə Laçın rayonu Taxtakörpü qəsəbəsində yerləşən M.Məmmədov adına Qarakeçdi kənd 2 saylı tam orta məktəbində "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda;

**24 noyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və QMİ-nin Ağsu rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə Ağsu şəhər "Nuran Xatun" məscidində "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Şəhər Polis İdarəsi, Abşeron-Xızı Regional Gənclər və İdman, Təhsil idarələrinin təşkilatçılığı ilə Sumqayıt şəhəri 39 saylı tam orta məktəbində "Dini radikalizm və narkomaniya ilə mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Oğuz rayonunda "Məişət zorakılığının qarşısının alınması" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH və rayon PŞ-nin təşkilatçılığı ilə rayonun Lək kənd 2 saylı tam orta məktəbində "Dini radikalizm, məişət zorakılığı və narkomaniya" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi və Göyçay rayon PŞ-nin təşkilatçılığı ilə rayonun Ləkçıplaq kənd 2 saylı tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərə qarşı mübarizədə sosial fəallıq" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağcabədi rayon PŞ-nin təşkilatçılığı ilə rayonun Qaraxanlı kənd tam orta məktəbində "Antinarkotik təbliğat sahəsində fəaliyyətin gücləndirilməsi, dini radikalizm və ekstremizm,




erkən nikah və onun fəsadları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdabda "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Xətai RİH və Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının təşkilatçılığı ilə Bakı şəhəri General Məhəmməd Əsədov adına 29 saylı orta məktəbində; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in təşkilatçılığı ilə rayonun Aşıqlı kənd C.Verdiyev adına tam orta məktəbində "Dini radikalizm və onun fəsadları" mövzusunda;

**27 noyabr** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən RİH-in təşkilatçılığı ilə Balakən rayonunda "Məişət zorakılığı və gender əsaslı zorakılıq ilə mübarizə" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki Mərkəzi Qız Quran Kursunda "Vətən müharibəsindəki qələbəmizdə milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Naftalan şəhərində "Dini radikalizmlə mübarizədə gənc nəslin rolu" mövzusunda;

**28 noyabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şamaxıda "Ulu Öndər və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Quba



bölgəsi üzrə şöbəsi və Quba RİH-in təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Zaqatala RİH-in təşkilatçılığı ilə rayondakı Peşə Məktəbində "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda;

**29 noyabr** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı şəhər Müşfiq Muradov adına 1 saylı ümumi orta məktəbində "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Heydər Əliyev - 100: birliyimiz və vəhdətimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux rayonunda "Gənclərin dini radikalizm və zərərli vərdişlərdən qorunması" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi rayonu Qaradolaq kənd H.Məmmədov adına 1 saylı tam orta məktəbində "Dini radikalizm və zərərli vərdişlərə qarşı mübarizə" mövzusunda;

**30 noyabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tərtər rayonunda "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi şöbəsinin təşkilatçılığı ilə Siyəzən rayonunda "Ulu Öndər Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhəri Şah İsmayıl Xətai adına 13 saylı tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "İslam həmrəyliyi və məzhəbayrıseçkiliyinin təhlükəsi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda N.Allahverdiyev adına 2 №-li tam orta məktəbində "Dini fanatizm, radikalizm, ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şəki şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir Peşə Liseyində maarifləndirmə tədbiri baş tutub.



DQİDK-nın bölgə şöbələri və digər qurumların əməkdaşlarının, dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, şəhid ailələrinin üzvləri, müharibə veteranları, qazilər, hərbi hissələrin şəxsi heyətinin, o cümlədən müəllimlər, tələbələr və məktəblilərin, eləcə də ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirlərdə Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlarda respublikamızda mövcud olan tolerant və multikultural şəraitdən, milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində görülən işlərdən bəhs olunub. Qeyd olunub ki, Azərbaycan dövlətinin memarı olan Heydər Əliyev milli-mənəvi dəyərlər sistemini qoruyan, inkişaf etdirən və onu milli özünüdərkin həlledici amilinə çevirən fenomenal şəxsiyyətdir. Natiqlər vurğulayıblar ki, Ümummilli Liderin siyasi xətti Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. Bu gün tolerantlığın Azərbaycan modeli dünya üçün nümunə sayılır və dini dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər isə tariximizə qızıl hərflərlə yazılıb. O da vurğulanıb ki, bu müqəddəs Zəfər yolunda şəhid olan igidlərimizin ailələri, qazilər və veteranlar daim dövlətimizin xüsusi diqqət və qayğısı ilə əhatə olunur.

Tədbirlərdə cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılıb. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb. Vurğulanıb ki, bu gün dünyanın ən mühüm problemlərindən biri olan məişət zorakılığının qarşısının alınması üçün qanunvericilik və dövlət dəstəyi ilə yanaşı, cəmiyyət özü, xüsusilə vətəndaş cəmiyyəti zorakılıq hallarına adekvat reaksiya verməlidir.

Çıxışlarda dini radikalizm və ekstremizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin rolu mövzusuna da toxunulub. Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı görülən tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, İslam dinində insan həyatına verilən dəyərdən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan tədbirlərdə qarşılıqlı diskussiyalar aparılıb, iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# HAMILIQLA ALLAHIN İPİNƏ (DİNİNƏ, QURANA) MÖHKƏM SARILIN...

İslam dini cəmiyyətin milli və dini birliyini sarsıtmağa yönələn hər cür təfriqəçiliyi qadağan etmişdir. Çünki xalqların inkişaf və tərəqqisi vəhdət halında yaşamaqdan asılıdır. Birlik və həmrəyliyin olmadığı cəmiyyətlərdə isə parçalanma, kin, nifrət və düşmənçilik hökm sürər. Uca Rəbbimiz Qurani-Kərimdə insanların bir-birinə qarşı kin və nifrət bəsləməyinin nə qədər təhlükəli olduğuna diqqət çəkərək toplumdakı həmrəyliyi xilas yolu kimi göstərmişdir. Bu barədə "Ali-İmran" surəsinin 103-cü ayəsində buyurulur: "Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən. O sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi..."

Milli-dini birlik həm də güclü millət və dövlət olmağın əsas şərtidir. Ona görə də milli-dini birliyə qarşı yönəlmiş bütün düşüncə və ideyalar zərərlidir. Belə ideyaların yayılmasında söz və vicdan azadlığından sui-istifadə isə yolverilməzdir. Çünki söz və vicdan azadlığı əslində hər ağıla gələnin söylənilməsi deyil, cəmiyyət üçün faydalı ideyaların irəli sürülməsidir. Bu səbəbdən də müsəlman Allah Rəsulunun (s) buyurduğu kimi ya xeyir söyləməli, ya da susmalıdır. Uca Yaradan Qurani-Kərimin "əl-İsra" surəsinin 53-cü ayəsində Həzrət Məhəmmədə (s) xitab edərək buyurmuşdur ki, "...bəndələrimə de, gözəl sözlər söyləsinlər, yoxsa şeytan onların arasına fitnə-fəsad salar".

Anlaşıldığı kimi, milli-dini həmrəylik dövlətlərin varlığını qoruyub saxlayan əsas amildir. Bu dəyərlərdən məhrum dövlətlərdə isə əmin-amanlıq olmadığı kimi, onların gələcəyi də sual altında olar. Cəmiyyətdə birlik və həmrəyliyi qoruyub saxlamaq üçün hər kəsin üzərinə müəyyən vəzifələr düşür. Bunların ən mühümü insanların şəxsi maraqlarını kənara qoyub, millətin mənafeyini üstün tutmasıdır. Əgər hər kəs öz üzərinə düşənləri ümumi mənafe naminə yerinə yetirərsə, cəmiyyətdə əmin-amanlıq hökm sürər. Əks təqdirdə, dinclik pozular, bölücülük cəmiyyəti parçalayaraq məhvə sürükləyər. Şübhəsiz ki, xalqımızın tarix boyu əldə etdiyi zəfərlərinin təməlində həm də dini-milli birlik dayanır.

Milli müxtəlifliyə gəlincə, bəşər övladının fərqli qəbilə və xalqlara ayrılması bir gerçəklikdir. Məsələnin hikmətini isə Allah-Təala Qurani-Kərimdə belə açıqlamışdır: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır" ("Hucurat" surəsi, 13).

Qurani-Kərimdən də anlaşıldığı kimi, insanlar bir-birini tanısınlar deyə müxtəlif millətlərə ayrılmışdır. Hər xalqın öz ünsiyyət vasitəsi, mənsubiyyəti, mədəniyyəti və digər dəyərləri vardır. İrqlərin və millətlərin olması, həmçinin onlar arasında fərqlilik ixtilafa gətirib çıxarmamalıdır. Bu müxtəlifliklikdəki hədəf Uca Yaradanın da buyurduğu kimi ancaq tanışlıqdır. Həzrət Məhəmmədin (s) səhabələrinə nəzər yetirdikdə onların içərisində müxtəlif millət və irqlərin nümayəndələrinin olduğunu görərik. Məsələn, fars mənşəli Salman əl-Farsi, yunan mənşəli Süheyb, efiopiyalı Bilal Həbəşi. Həzrət Peyğəmbər (s) həmin şəxslərə olduqca böyük hörmət və ehtiramla yanaşmış, onlara yüksək dəyər vermiş, ərəb mənşəli səhabələrdən fərqləndirməmişdir.

İslama görə, insanları bir-birindən fərqləndirən meyar zahiri görkəmləri deyil, mənəvi zənginlikləri və təqvadır. Allah Elçisi (s) hədislərinin birində bu cəhətə belə diqqət çəkmişdir: "Ərəbin əcəm üzərində, ağın isə qara üzərində heç bir üstünlüyü yoxdur, üstünlük ancaq təqvaya görədir".

İslam qardaşlıq dinidir. Birlik və vəhdətə əsaslanan bu qardaşlıq münasibətlərində isə umu-küsü və ən kiçik ədavət belə olmamalıdır. Allah-Təala Qurani-Kərimin "Hucurat" surəsinin onuncu ayəsində bu məqama belə diqqət çəkmişdir: "Şübhəsiz ki, möminlər qardaşdırlar. Ona görə də (aralarında ədavət olan) qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm olunsun".

Əsrlərcə xalqımıza hakim olan və əcdadlarımızdan bizə miras qalmış bu qardaşlıq gücümüzə güc qatmış və vətənin hər şeydən üstün tutulmasına səbəb olmuşdur. Elə 44 günlük Vətən müharibəsində qələbəmizi təmin edən əsas amillərdən biri də məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək dəmir yumruq olmağımızdır.

Təəssüf ki, bu gün də birliyimizi pozmağa və müqəddəs dəyərlərimizi sarsıtmağa çalışanlar var. Bunlar çirkin məqsədlərini həyata keçirmək üçün müxtəlif vasitələrə əl atır, hər cildə girir, hətta dindən də sui-istifadə edirlər. Lakin onların bu siyasəti sağlam fikirli millətimizin sarsılmaz iradəsi qarşısında mütləq iflasa uğrayacaqdır.

Bildiyimiz kimi, Azərbaycan tarixən İslam dünyasının əsas mədəni, dini mərkəzlərindən biri olmuşdur. Eyni zamanda, ölkəmiz İslam mədəniyyətinə, elminə böyük töhfələr vermişdir. Buna paralel olaraq, dünyəviliyə, sivilizasiyalararası, dinlərarası dialoqa, müasirliyə münasibətdə həmişə İslam dünyası üçün örnək olmuşdur. Başqa sözlə, Azərbaycan Qərbə münasibətdə İslam dünyası üçün, Şərqə münasibətdə isə Qərb üçün bir nümunədir. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra təmirə ehtiyacı olan bütün dini abidələr bərpa edilib. Azərbaycanda mütəmadi olaraq vəhdət namazları qılınır. Bu qardaşlıq nümunəsi dövlət-din münasibətləri ilə bağlı aparılan uğurlu siyasətin bariz göstəricisidir.

Bütün bunlar göstərir ki, milli-dini birlik və həmrəyliyimiz müstəqil dövlətçiliyimizin qorunub-saxlanılmasının əsas şərtlərindən biridir.

**Hazırladı: Vüqar Hümmətov,**
*ilahiyyatçı*

# PORTUQALİYADA ROMA ZİYARƏTGAHININ YERİNDƏ TİKİLMİŞ MƏSCİDİN XARABALIQLARI AŞKAR EDİLİB



Portuqaliyanın Sintra sahilindəki ən gözəl çimərliklərdən birində yerləşən Praya-das-Masaş şəhəri yaxınlığındakı Alto-da-Vica arxeoloji sahəsində XI-XII əsrlərə aid ribat (ribatlar İslamın müdafiəsi uğrunda döyüşənləri yerləşdirmək üçün istifadə olunurdu) məscidinin xarabalıqları aşkar edilib. Bu barədə "arkeonews" xəbər verib.

Sintra bələdiyyəsindən verilən açıqlamada bildirilir: "Bu yer həm ibadət, həm də xüsusilə xristian qüvvələrin hücum riskinə qarşı sahilə nəzarət yeri olmuşdur". Şəhər şurasının məlumatında həmçinin vurğulanır ki, "burada İslam inancının tələblərinə uyğun şəkildə həyata keçirilən dəfnlərin olduğu qəbiristanlığın, eləcə də yeməklərin saxlanması üçün nəzərdə tutulmuş qayada qazılmış onlarla çuxurun olması ehtimalı var".

Bələdiyyə Arxeoloji Xidmətinin mütəxəssisləri vurğulayırlar ki, Alto-da-Vica ribatının unikal xüsusiyyəti ondan ibarətdir ki, Günəşə, Aya və Okeana ithaf olunmuş Roma məbədi ilə eyni məkanı bölüşür, hansı ki, onun xarabalıqlarının tikinti materialına çevrilmiş bir neçə epiqrafik və memarlıq elementindən yenidən istifadə etmişdir.

# İSVEÇİN BAŞ NAZİRİ: ÖLKƏMİZDƏ MÜSƏLMANLARIN TƏHLÜKƏSİZLİYİ OLDUQCA VACİBDİR



Ultra-sağ milliyyətçi və sağçı populist "İsveç demokratları" (Sverigedemokraterna) partiyasının lideri Cimmi Okesson partiya yığıncaqlarının birində çıxış edərək bildirib ki, yeni məscidlərin tikintisini dayandırmaq və "antidemokratik, İsveç əleyhinə, homofob və ya antisemit təbliğatla məşğul olan" məscid binalarını sökmək istəyir. Partiya lideri, həmçinin bəyan edib ki, "şəhər mənzərəsində islamçı abidələr olan minarələr, qübbələr, ayparalar və digər atributlar bütünlüklə aradan qaldırılmalıdır".

İsveçin Baş naziri Ulf Kristersson isə onun bu bəyanatını "qəbuledilməz və qütbləşdirici" adlandırıb. Baş nazir əlavə edib: "Bu, beynəlxalq aləmdə İsveçin imici ilə bağlı yanlış təsəvvürlər yaradır. Biz ölkədə ibadət məkanlarını sökmürük, əksinə, İsveç dəyərlərini müdafiə edirik və ekstremizm, o cümlədən islamçılığa qarşı çıxış edirik".

Bununla yanaşı, İsveç hökuməti "X" sosial şəbəkəsində bu ölkədə din azadlığının üstün olması və onun konstitusiya ilə qorunması barədə post yerləşdirib.

Cimmi Okesson öz ünvanına səslənən tənqidlərə cavab olaraq bildirib ki, o, açıqlamasında bütün müsəlmanları deyil, islamçıları xüsusi qeyd edib. "Bəlkə də, məsələn, Fransada olduğu kimi, ekstremizmin çiçəkləndiyi məscidləri bağlamaq və nifrət təbliğ edən imamları qovmaq kifayət edər", - deyə Okesson əlavə edib.

İsveçin dini icmalara cavabdeh olan naziri Jakob Forssmed deyib ki, Okesson məscid tikintisini tamamilə dayandırmaq istəyir və bu, bütün müsəlmanları hədəf alan çox radikal bir yanaşmadır, eyni zamanda, din azadlığı ilə bir araya sığmır.

Forssmed vurğulayıb: "İsveç demokratları" liderinin bu bəyanatının məzmunu hökumət tərəfindən dəstələnən siyasət deyil. Hökumət inancların geniş spektrinin olmasını alqışlayır və dini azadlıqları qoruyur. Dini etiqad azadlığı fərdi və kollektiv şəkildə öz dininə etiqad etmək imkanıdır. Bunu başqaları ilə birlikdə etmək istəyirsinizsə, çox vaxt bunun üçün xüsusi uyğunlaşdırılmış məkanda toplaşmalısınız, müsəlmanlar üçün belə bir məkan məscidlərdir".

Okessonun məscidlərin sökülməsi ilə bağlı bəyanatından sonra Höteborqun 15 müsəlman təşkilatı açıq məktubla ölkənin Baş naziri Ulf Kristerssona müraciət edib. Məktubda İsveç müsəlmanları Baş nazirdən onları müdafiə etməyi, həmçinin bütün isveçlilərin maraqlarını aydın və cəsur şəkildə dəstəkləməyi, milləti birləşdirməyi, bütün isveçliləri təmsil etməyi, nifaq salmaq istəyən və insanlar arasında dini etiqadlarına, mənşəyinə görə ayrı-seçkilik salanlardan uzaq durmağı tələb ediblər.

Ulf Kristersson ölkə müsəlmanlarına cavab məktubu göndərib və ona məktub ünvanladıqları üçün təşəkkürünü bildirib.

"Mən müsəlmanların bir çoxunun İsveçdə özlərini köməksiz və zəif hiss etmələrinə görə dərin narahatlıq keçirirəm. Biz bununla heç vaxt barışmayacağıq. İsveç müsəlmanlarının öz ölkələrində özlərini təhlükəsiz hiss etmələri və layiq olduqları hörməti görmələri mənim üçün olduqca vacibdir", – deyə Baş nazir qeyd edib.

# QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**«Sabirabad rayonu Cavad kəndi “Əlicanlı” məscidi» dini icması**

Qeydiyyat tarixi: 30 iyul 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 458

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən «Sabirabad rayonu Cavad kəndi “Əlicanlı” məscidi» dini icmasının adı «Sabirabad rayonu Cavad kəndi “Əlicanlı” məscidi» dini icması kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarılmış, həmin dini icmanın adı «Sabirabad rayonu Əlicanlı kəndi “Fatimeyi-Zəhra” məscidi» dini icması kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmişdir.

«Sabirabad rayonu Əlicanlı kəndi “Fatimeyi-Zəhra” məscidi» dini icmasının hüquqi ünvanı «Sabirabad rayonu, Cavad kəndi, “Əlicanlı” məscidi» kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarılmış, həmin dini icmanın hüquqi ünvanı «Sabirabad rayonu, Əlicanlı kəndi, “Fatimeyi-Zəhra” məscidi» kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmişdir.

İsmayılov Ağamoğlan Baloğlan oğlu, Əlicanov Əlican Həsən oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Qədirov Sadiq Faiq oğlu, Qəhrəmanov İlham Qəhrəman oğlu, Qəhrəmanov Sahil Əlibala oğlu, Quliyev Elşən Tahir oğlu, Abasov Valeh Umbay oğlu, Xəlilov Niyazi Xanbala oğlu, Əkbərov Vüqar Şahbaz oğlu, İsmayılov Ərzulla Əlisahib oğlu, Əliyev Ağateymur Qaroğlan oğlu, Əkbərov Sadiq Şahin oğlu, Əkbərov Əlişirin Balaşirin oğlu, Xəlilov Rafət Gülağa oğlu, Əhmədov Fikrət Səmid oğlu, Abdullayev Babalı Ağalı oğlu, Usubov Raqif Dünyamalı oğlu, Musayev Qəhrəman Ayaz oğlu, Bəndaliyev Eldar Əlxan oğlu, Zeynalov Abuzər Saxavəddin oğlu, Bağırov İlqar Gülaslan oğlu, Nəsirov Hikmət Arif oğlu, Əkbərov Əziz Soltan oğlu, Xəlilov Namik Gülağa oğlu, Şükürov Elnur Oktay oğlu, Quliyev Novruzəli Həmid oğlu, Nəsirov Arif Yurdçi oğlu, Bağırov Güləhməd Məhəmməd oğlu, Zeynalov Azər Saxavəddin oğlu, İsmayılov Əliağa Ağamoğlan oğlu, Xəlilov Afət Məmməd oğlu, Bağırov Zeynal Gülməli oğlu, Əkbərov Ziyad Abdul oğlu, Quliyev Fəxrəddin Xalıq oğlu, Xəlilov Ağaxəlil Məmməd oğlu, Əkbərov Abış Səttar oğlu, Həsənov Ziyadxan Feyruz oğlu, İsmayılov Əlimurad Əlisahib oğlu, Mürşüdov Tahir Əlibala oğlu, Quliyev Vəfadar Fəxrəddin oğlu, Abasov Əbülfəz Umbay oğlu, Əkbərov Rasim Soltan oğlu, Abasov Allahverdi Xanalı oğlu, Əkbərov Araz Soltan oğlu, İsmayılov Baloğlan Ağamoğlan oğlu, Əkbərov Aqşin Araz oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 noyabr 2023-cü il

**«Masallı rayonu Hacıtəpə kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 02 avqust 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 462

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əliyev Səftər Məhərrəm oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Əsədov Ələmdar Mirzəkişi oğlu, Məmmədov Əlikram Salman oğlu, Əzizov İskəndər Rasim oğlu, Hüseynov Məhəmməd Qulaməli oğlu, Əsədova Xumar Qənimət qızı, Ələkbərov Zöhrab Arazxan oğlu, Əhmədov İslam Rüstəm oğlu, Kərimov Alim Əjdər oğlu, Əhmədov Elşən Firudin oğlu, Cavadov Rahim Cavad oğlu, Şəmmədov Elşən Şahbaz oğlu, Mailova Eminə Rahim qızı, Mailov Fariz Beytulla oğlu, Ağayev Mazan Bayram oğlu, Məmmədova Zahirə Heydər qızı, Məmmədov İlqar Ziyadxan oğlu, Cavadova Qızbəs Ağagül qızı, Şəmmədov Qurbanəli İdris oğlu, Əliyev Valeh Cəfər oğlu, Babayev Sakit Allahverdi oğlu, Hüseynova Nərmilə Ziyadxan qızı, Əzizova Sevinc Əliheydər qızı, Nəsirov Amin Malik oğlu, Hüseynov Zəfər İsmayıl oğlu, Hüseynov Anar Zəfər oğlu, Əzizov Rövşən Vaqif oğlu, Məmmədov Elçin Rakif oğlu, Ağayev Təvəkgül Əmiş oğlu, Əzizov Nicat Vahab oğlu, Bağışov Azad Nüsrət oğlu, Bağışov İmaməddin İltimas oğlu, Məmmədov İbrahim Vəlihəd oğlu, Orucov Allahverən Teyib oğlu, Abuşov Zamin Abdulla oğlu, Hüseynov Rüstəm Abas oğlu, Ağayev Cabir Alişan oğlu, Baxışov Əlizaman Əsgər oğlu, Mailov Beytulla Teyib oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 01 noyabr 2023-cü il

**«Biləsuvar rayonu Əsgərabad kəndi “İmam Hüseyn” məscidi» dini icması**

Qeydiyyat tarixi: 21 iyun 2010-cu il
Qeydiyyat №-si: 100110A3 – 416

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hətəmov Ağadin Hidayət oğlu, Səmədov Nağdı Qüdrət oğlu, Kərimov Naxış İzzət oğlu, Bayramov Əbil Musa oğlu, Əliyev Saleh Məcid oğlu, Ociyev Əjdər Məhərrəm oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

Əskərzadə Xəqani Vaqif oğlu, Mənsimov Nadir Mirzəhəsən oğlu, Əhmədov Elman Şövlət oğlu, Rüstəmov Əliqismət Əkbər oğlu, Əliyev Qabil Alı oğlu, Kərimov Natiq Əvəz oğlu, Hətəmov İdris İltifat oğlu, Mirsultanov Mirhənifə Mirsultan oğlu, Şükürov Mirzəli Hüseynəli oğlu, Qənbərov Rahim Sahibəli oğlu, Paşayev Bəxtiyar Yusif oğlu, Əliyev Habil Nocu oğlu, Əzizov Adıgözəl Əliguşad oğlu, Kərimov Şirindil Həsən oğlu, Bayramov İsa Əliheydər oğlu, Nərimanov Vasif Qası oğlu, İbrahimov Nuralı Turab oğlu, Həbibov İmanxan Məmməd oğlu, Mənsimli Qurban Nadir oğlu, Həbibov Əməş Məmməd oğlu, Quliyev Teymur Mirzə oğlu, İsmayılov Sədulla Qurban oğlu, Hətəmov Tofiq Ağaddin oğlu, Səmədov Mürsəl Nağdı oğlu, Bayramov Sudeyf Nəsir oğlu, Əhmədov Sakit Şövlət oğlu, Əzizov Məmmədəli Balakişi oğlu, Kərimov İntiqam Hamən oğlu, Şahbazov Elşad Əlisahib oğlu, Kərimov Mövsüm Hüseyn oğlu, Fərzəliyev Məhəmməd Qurban oğlu, Əliyev Arif Alı oğlu, Əhmədov Şövlət Vəli oğlu, Qənbərov Valeh Qurban oğlu, Əmirov Rasət Məcid oğlu, Əzizli Əflatun Əşrəf oğlu, Hətəmov Oqtay Ağaddin oğlu, Həbibli Nicat Simran oğlu, Abışov Əlövsət Vəlişan oğlu, Mənsimli Rəhman Nadir oğlu, Əliyev Arif Şahüseyn oğlu, İbrahimov Hüseynağa Turab oğlu, Muradov Elman Yusif oğlu, Əmirov Bəhruz Məcid oğlu, Mirsultanov Mirəşrəf Mirsultan oğlu, Səfərov Əhliyar Məhərrəm oğlu, Qəhrəmanov Ələddin Əlisəfər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

Dəyişikliklərin qeydiyyat tarixi: 17 noyabr 2023-cü il

## AMERİKALI PRELAT KATOLİK KİLSƏSİNİN QƏRARGAHININ ROMADAN KÖÇÜRÜLMƏSİNİ MƏSLƏHƏT GÖRÜB



Hartford (Konnektikut) arxiyeparxiyasının koadyutoru və gələcək arxiyepiskopu Kristofer Koyn yerli televiziyaya müsahibəsində bildirib ki, əgər onun Papa Fransiskə Katolik Kilsəsində nəyisə dəyişdirməyi təklif etmək imkanı olsa, kilsənin qərargahını Romadan başqa yerə köçürməyi təklif edəcək. Koyn hesab edir ki, bu gün Katolik Kilsəsi “çox romasayağı” olduğu üçün bunu etmək lazımdır. Bu barədə “Crux” nəşri məlumat verib.

“Çünki bunlar romalılardır... bu, yerli icmanın mədəniyyətində kök salıb. Papa Fransisk Roma adətlərini dəyişdirməyə çalışdı, dəfələrlə buna cəhd etdi, lakin siz uzun illər Kilsə ənənəsinin bir hissəsi olan Roma adətləri ilə qarşılaşdınız”, - deyə Koyn “WTNH News8”ə müsahibə verib.

Əvvəllər Vermont ştatında Berlinqton yepiskopu və İndianapolis arxiyeparxiyasında köməkçi yepiskop vəzifəsində çalışan Koyn Hartford arxiyepiskopu Leonard Bleyeri əvəz edəcək. Ehtimal olunur ki, 75-ci doğum günündə, yəni 12 aprel 2024-cü ildə Papa Fransisk Bleyerin istefasını qəbul edən kimi, Koyn vəzifəsinin icrasına başlayacaq.

O, müsahibəsində kilsədə qadınların roluna da toxunaraq, onlarda böyük potensial gördüyünü deyib. Prelat nə vaxtsa bəzi diakonesləri vəzifəyə təyin etmək fürsətinə ümid etdiyini söyləyib. Həmçinin prelat qeyd edib ki, Amerika Kilsəsi, xüsusən də şimal-şərqdə “artıq bir mədəniyyət kilsəsi deyil... həyatın müxtəlif sahələrinə avtomatik daxil olmağımız mənasında icma kilsəsidir”.

## İRAQDA MAKEDONİYALI İSKƏNDƏRİN İLAHİLİYİNİN ELAN EDİLDİYİ MƏBƏD AŞKARLANIB

“Ancient-origins” internet nəşrinin yazdığına görə, Makedoniyalı İskəndərin 32 yaşında vəfat etməzdən əvvəl gördüyü son işlərdən biri özünün də ilahi statusunu təsdiqləməklə yanaşı, qədim tanrılara yunan məbədi həsr etməsi ola bilər. Bu barədə İraqın cənubundakı qədim Girsu şəhərində çalışan və 4000 illik Şumer məbədində qazıntı işləri aparan Britaniya Muzeyinin arxeoloqları məlumat veriblər. Son dərəcə sirli və qiymətləndirilməsi çətin olan ən əski yunan yazıları indiyə qədər arxeoloji qrup üçün anlaşılmaz qalırdı.

Tiris kimi də tanınan Girsu Mesopotamiyanın cənubunda, indiki İraq ərazisində yerləşən qədim Şumer şəhəri olub və erkən Mesopotamiya mədəniyyətinin inkişafında həlledici rol oynayıb. Məbədin qazıntılarından bəlli olur ki, Makedoniyalı İskəndər dövründə yaşayan insanlar bu yerin qədim tarixindən xəbərdar olublar. Tərk edilmiş, min illər boyu yatmış bu yer qədim cəmiyyətlərdə dəqiq tarixi biliyin və mədəni yaddaşın mövcudluğuna işarə edir. Məbəd təxminən eramızdan əvvəl 1750-ci ildə, Makedoniyalı İskəndərin doğulmasından min ildən çox əvvəl tərk edilib.

XIX əsrdə qazıntılara başlandıqdan sonra sirli lövhənin tapılması nəticəsində burada təkcə şumerlərin deyil, həm də daha sonrakı dövrlərə aid yunan tikilisinin olması ilə bağlı fərziyyələr yarandı. Yunan və aramey dillərində yazılmış lövhədə “iki qardaşı bəxş edən” mənasındakı “Adad-nadin-ahe” yazısı vardı. Tədqiqatçılar ehtimal edirlər ki, yunanlar, o cümlədən İskəndərin davamçıları, bəlkə də onun ilahiliyini təsdiqləmək üçün qədim torpaqlarda öz məbədlərini qurmuşdular.

Britaniya Muzeyinin ekspedisiyası digər çoxsaylı tapıntılar arasında eramızdan əvvəl 330-cu illərdə İskəndərin qoşunları tərəfindən zərb edilmiş gümüş sikkə də tapıb. “The Daily Mail”in verdiyi xəbərə görə, bu zaman çərçivəsi Makedoniyalı İskəndərin həyatına uyğundur və onun əvvəllər bölgənin sahibi olan farslar üzərində qələbəsindən sonrakı dövrə təsadüf edir.

Bu kəşf yunanların bəlkə də İskəndərin təsiri altında qədim ərazidə məbəd qurduqları fərziyyəsini gücləndirir. Fəthlərindən sonra yunanlar bölgədə silinməz izlər qoyublar və liderlərinin qələbələri şərəfinə dini tikili inşa ediblər.

CƏMİYYƏT və DİN
№ 11 (385) NOYABR 2023-cü il

## ALİMLƏR AY TORPAĞINI KƏND TƏSƏRRÜFATI ÜÇÜN MÜNBİT HALA GƏTİRİBLƏR

Bəşəriyyət nə vaxtsa Ayda uzunmüddətli bazalar quracaqsa, müntəzəm qida mənbəyinə ehtiyac yaranacaq. Bununla belə, ayda istixanalarda hər hansı bir məhsul gözləmək hazırda real deyil.

"Reuters" agentliyinin verdiyi xəbərə görə, bununla yanaşı, elm adamları Ayda kənd təsərrüfatını təşkil etmək üçün addımlar atırlar. Tədqiqatçılar bildiriblər ki, onlar mühüm bitki qida elementi olan fosforun mövcudluğunu artıran bakteriyaları tətbiq etməklə, əlverişsiz Ay torpağını münbit hala gətirmək üçün yol tapıblar.

Alimlər Çindəki laboratoriyada tütün becərmək üçün uyğunlaşdırılmış Ay torpağından, daha doğrusu Ay reqolitindən istifadə edərək təcrübələr aparıblar. Müəyyən ediblər ki, üç növ bakteriya ilə zənginləşdirilən Ay torpağı mikrobsuz eyni torpaqla müqayisədə daha uzun gövdə və köklərə malik bitkilər, eləcə də daha ağır və daha geniş yarpaq qrupları əmələ gətirir.

Tədqiqatçıların sözlərinə görə, bakteriyaların hərəkəti torpağı daha turşulu edir. Nəticədə aşağı pH mühiti həll olunmayan fosfat tərkibli mineralların bu torpaqda mənimsənilməsinə səbəb olur və bu, bitkilər üçün fosforun mövcudluğunu artırır.



## "MERRİAM-WEBSTER" NƏŞRİYYATI 2023-CÜ İLİN SÖZÜNÜ ELAN EDİB

ABŞ-ın ən qədim lüğətlərin dərc edilməsi ilə məşğul olan "Merriam-Webster" nəşriyyatının versiyasına görə, 2023-cü ilin sözü "autentik"dir.

Nəşriyyatın fikrincə, bu seçim süni intellekt, məşhurların mədəniyyəti, identiklik və sosial media haqqında hekayətlər və söhbətlər sayəsində bu il "autentik" sözünün populyarlığının əhəmiyyətli dərəcədə artması ilə əlaqədardır.

Bir çoxları nə üçün məhz bu sözün seçilməsinin səbəbini axtarsa da, "autentik" sözünün həm də "saxta olmayan və ya təqlid edilməyən" və "öz şəxsiyyətinə, ruhuna və ya xarakterinə sadiq" də daxil olmaqla, bir neçə mənaya malik olduğu qeyd olunur.

Nəşriyyatın yazdığına görə, bu termindən öz "orijinal səslərini" və "orijinal şəxsiyyətlərini" tapmaq istədiklərini bəyan edərək, qəzet manşetlərinə çıxan Leyni Uilson, Sem Smit və Teylor Svift kimi məşhur müğənnilər də istifadə ediblər.

Bu sözün digər məşhur istifadəçisi isə İlon Maskdır. O, insanların sosial şəbəkələrdə daha "autentik" olmalarının vacibliyini bildirib.

Süni intellektin inkişafı real və qeyri-real olanlar arasındakı sərhədləri aradan qaldırıb, bu da məşhurların, brendlərin və sosial media influenserlərinin öz həqiqiliklərini sübuta yetirməyə can atmalarına səbəb olub. Lüğətin bildirdiyinə görə, builki axtarış nəticələrində diqqət çəkən digər sözlərdən biri də onunla sıx əlaqəli olan və "insanı yalançı tərzdə təqdim etmək məqsədilə inandırıcı şəkildə dəyişdirilmiş və manipulyasiya edilmiş şəkil və ya qeyd" mənasını verən "deepfake" sözüdür.

Nəşriyyatın qeyd etdiyinə görə, 2023-cü ildə ən çox işlənən və məşhurlaşan digər sözlər rizz, deepfake, koronasiya, antiutopik sözləridir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Dekabr - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:18 | 07:44 | 12:29 | 15:34 | 17:31 | 18:35 |
| 2 | 06:19 | 07:45 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 3 | 06:19 | 07:46 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 4 | 06:20 | 07:47 | 12:30 | 15:34 | 17:30 | 18:35 |
| 5 | 06:21 | 07:48 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 6 | 06:22 | 07:49 | 12:31 | 15:33 | 17:30 | 18:35 |
| 7 | 0623 | 07:49 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 8 | 06:24 | 07:50 | 12:32 | 15:33 | 17:30 | 18:35 |
| 9 | 06:24 | 07:51 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 10 | 06:25 | 07:52 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 11 | 06:26 | 07:53 | 12:33 | 15:33 | 17:30 | 18:35 |
| 12 | 06:27 | 07:54 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 13 | 06:27 | 07:55 | 12:34 | 15:34 | 17:30 | 18:36 |
| 14 | 06:28 | 07:55 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 15 | 06:29 | 07:56 | 12:35 | 15:34 | 17:31 | 18:36 |
| 16 | 06:29 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 17 | 06:30 | 07:57 | 12:36 | 15:35 | 17:31 | 18:37 |
| 18 | 06:31 | 07:58 | 12:37 | 15:35 | 17:32 | 18:38 |
| 19 | 06:31 | 07:59 | 12:37 | 15:36 | 17:32 | 18:38 |
| 20 | 06:32 | 07:59 | 12:38 | 15:36 | 17:33 | 18:38 |
| 21 | 06:32 | 08:00 | 12:38 | 15:36 | 17:33 | 18:39 |
| 22 | 06:33 | 08:00 | 12:39 | 15:37 | 17:34 | 18:39 |
| 23 | 06:33 | 08:01 | 12:39 | 15:37 | 17:34 | 18:40 |
| 24 | 06:34 | 08:01 | 12:40 | 15:38 | 17:35 | 18:40 |
| 25 | 06:34 | 08:02 | 12:40 | 15:39 | 17:35 | 18:41 |
| 26 | 06:35 | 08:02 | 12:41 | 15:39 | 17:36 | 18:42 |
| 27 | 06:35 | 08:02 | 12:41 | 15:40 | 17:36 | 18:42 |
| 28 | 06:35 | 08:03 | 12:42 | 15:41 | 17:37 | 18:43 |
| 29 | 06:36 | 08:03 | 12:42 | 15:41 | 17:38 | 18:44 |
| 30 | 06:36 | 08:03 | 12:43 | 15:42 | 17:39 | 18:44 |
| 31 | 06:36 | 08:03 | 12:43 | 15:43 | 17:39 | 18:45 |

## ALİMLƏR QAN XƏRÇƏNGİNİN MÜALİCƏSİ ÜÇÜN YENİ ÜSUL HAZIRLAYIBLAR



Almaniyanın Qalle-Vittenberq Universitetinin tədqiqatçıları MYNRL15 geninin aktivliyinin azaldılmasının leykoz zamanı xərçəng hüceyrələrinin sağ qalma riskinin aşağı düşməsi ilə nəticələndiyini aşkar ediblər.

Bu barədə araşdırmanın nəticələri "İscience" nəşrində dərc olunub.

Aparılan tədqiqat dəyişdirilmiş ağ qan hüceyrələrinin sürətlə çoxaldığı kəskin miyelogen leykemiyanın (AML) araşdırılmasına yönəlib. Bu hüceyrələr sümük iliyində yığılaraq normal qan hüceyrələrinin böyüməsinə maneə törədirlər ki, bu da eritrositlərin (qırmızı qan hüceyrələrinin), trombositlərin (qanın laxtalanmasına məsul olan hüceyrələr) və normal leykositlərin (ağ qan hüceyrələrinin) sayının azalmasına səbəb olur.

Alimlər dəyişdirilmiş (xərçəng) hüceyrələrin sağ qalma və çoxalma sürətinin xüsusi sayılan MYNRL15 geninin fəaliyyətindən qaynaqlandığını aşkar ediblər. Bu genin aktivliyinin azaldılması genomun üçölçülü strukturu olan xromatinin yerləşmə strukturundakı dəyişiklik sayəsində şiş hüceyrələrinin nəzarətsiz bölünmə qabiliyyətini itirməsinə səbəb olub. Genomların əksəriyyəti (insan və bütün digər hüceyrəli canlıların) DNT-sindən qurulur. Xromatinin lokal strukturunun transformasiyası genin aktivliyinə nəzarət prosesinin tərkib hissəsidir. Bu müdaxilə AML hüceyrələrinin yaşaması üçün zəruri olan genlərin zərərsizləşdirilməsi ilə nəticələnib.

Bildirilib ki, sözügedən araşdırma leykemiyanın müalicəsi üçün yeni imkanlar yaradacaq. Xərçəng hüceyrələrinin MYNRL15 genindən asılılığı genetik terapiyanın özünəməxsus metodlarının işlənib hazırlanması üçün istifadə edilə bilər.

### Yadigar söz

*Cübran Xəlil Cübran*

*Gözəlliyin hüdudlarından kənarda nə din var, nə elm.*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar,
Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA,
Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi: 2894